

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## YAP Sədrinin müavini Nepalda keçirilən AEPF-nin 5-ci iclasında iştirak edib




4

SƏS
№ 189 (6872)
17 oktyabr 2023-cü il.
Qiyməti 60 qəpik

# QALİB SƏRKƏRDƏ!

2



*Prezident İlham Əliyev: "Nəyi, necə, nə vaxt etmək lazımdır, onu mən bilirəm"*

# Ərzaq təhlükəsi(zliyi): Dünyanı və bizi nə gözləyir?



*Müasir dünyanın qarşılaşdığı ən böyük problemlərdən biri də ərzaq çatışmazlığı və aclıqdır. Təxmini hesablamalara görə, dünya əhalisinin 15 faizi, başqa sözlə 250 milyonu uşaq olmaqla 1 milyarda yaxın insan aclıqdan əziyyət çəkir.*

15

## Erməni baş nazir tərəfindən NÖVBƏTİ MANİPULYASİYA




10

## Cəmil Həsənli susqunluğu ilə qələbəmizdən pərişan olduğunu nümayiş etdirir



14

## 17 oktyabr: Gəncənin yaşadığı növbəti terror




6

## Polietilen torbaların ödənişli olması istifadəni azaldıb?



16

## Qalıcı boya və süni dırnaqlar: ÜSTÜ BƏZƏK, ALTI TƏZƏK



13

# QALİB SƏRKƏRDƏ!

## Prezident İlham Əliyev: "Nəyi, necə, nə vaxt etmək lazımdır, onu mən bilirəm"

***Dünyada söz sahibi olan Azərbaycan Cənubi Qafqazın lideri statusunu daşıyır. Tam müstəqil siyasət yürütməsi də respublikamızın beynəlxalq imicinə müsbət təsir edən əsas amillərdəndir. Sevindirici haldır ki, bu gün Azərbaycan Zəfər çalmış bir xalq, dövlət olaraq da dünyada tanınır. 30 ilə yaxın düşmən tapdağı altında olan torpaqlarımızın işğaldan azad edilməsi və Vətən müharibəsindəki tarixi Qələbə Azərbaycanın beynəlxalq nüfuzunu daha da yüksəldib.***



Bu qələbə Cənab Prezident İlham Əliyevin qətiyyəti, xalqımızın inamı və şəhidlərimizin qanı bahasına əldə olundu. Ali Baş Komandanımızın rəhbərliyi ilə ordumuz Ermənistana böyük zərbə vurdu və əzəli torpaqlarımız işğaldan azad olundu. Qazandığımız Zəfər Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsinin, xalq-iqtidar birliyinin təntənəsidir.






44 gün davam edən Vətən müharibəsində Azərbaycan Ordusu işğal altında olan ərazilərimizi düşməndən azad edərək, tariximizə Qələbə yazdı. Bu gün Azərbaycan torpaqlarında üçrəngli bayrağımız dalğalanır. Azərbaycan ordusunun əzmi, qətiyyəti, peşəkarlığı, vətənpərvərliyi təcavüzkar erməniləri torpaqlarımızdan təmizlədi. Noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş nazirinin birgə imzaladığı bəyanatla, 10 noyabr 2020-ci il tarixində Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olundu.

Əlbəttə ki, rəşadətli ordumuzun bölmələrinin işğaldan azad olunan rayonlarda Azərbaycan bayrağını qaldırması bizlərə fəxarət hissini yaşatdı. 30 ilə yaxın idi ki, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan tarixi torpaqları olan Qarabağ və onun ətrafında yerləşən 7 rayon Ermənistanın işğalı altında idi. Bu işğal və etnik təmizləmə siyasəti nəticəsində torpaqlarımızın 20 faizi işğal edilmiş və 1 milyondan çox azərbaycanlı məcburi köçkün, qaçqın vəziyyətində yaşayırdı. Artıq məcburi köçkünə dönmüş soydaşlarımızın üzərindən bu statusun götürülməsi hər kəsin sevincinə səbəb oldu.



*Oktyabrın 15-də Cənab Prezident üçrəngli bayrağımızı əzəli və əbədi torpaqlarımızda - Xankəndidə, Xocalıda, Xocavənddə, Ağdərədə, Əsgəranda ucaltdı, bizlərə Qələbə sevincini bir daha yaşatdı*

### BAYRAQLARI BAYRAQ YAPAN ÜSTÜNDƏKİ QANDIR

"Bayraqları bayraq yapan üstündəki qandır, Torpaq, uğrunda ölən varsa, vətəndir". Budur, bayrağın müqəddəsliyi və bayrağımıza olan sevgi. Bu gün Azərbaycan bayrağı işğaldan azad olan ərazilərimizdə dalğalanır. "Zəfərdən doğulmuş göytürkdən qalan qurdbaşlı bayrağın balası bayraq" Cəbrayıl şəhərində, Zəngilan şəhərində, Füzuli şəhərində, Qubadlı şəhərində dalğalanır. Qürurumuz, iftixarımız olan Azərbaycan BAYRAĞI. Bütün zirvələrdən, yüksəkliklərdən uca olan dövlət bayrağımız hər bir insanın vətəndaşlıq qürurudur. Göy, qırmızı, yaşıl rənglərdən, ağ aypara və səkkizguşəli ulduzdan ibarət üçrəngli bayraq Azərbaycan dövlətinin suverenliyinin rəmzidir. Bayrağımız üzərindəki hər bir rəng Azərbaycan tarixindən, dünənindən, keçmişindən danışır. Qürur mənbəyimiz və and yerimiz olan Bayrağımız bu gün göylərə yüksəlib. Azərbaycan əsgəri vətənimizin suverenliyinin və ərazi bütövlüyünün qorunması ilə bağlı şərəfli əsgəri vəzifəsini yerinə yetirməyə başlayarkən, müqəddəs bayrağımıza and içir. Vətən torpağının bütövlüyü uğrunda şəhidliyə hazır olan Azərbaycan əsgəri o bayrağa sarılaraq şərəfli mübarizəyə qoşulub, vətənin azadlığı uğrunda övladını qurban vermiş valideynlər şəhid cənazəsinə bükülmüş müqəddəs bayraqla təskinlik tapırlar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 15-də işğaldan azad olunan torpaqlarımıza səfəri çərçivəsində bir neçə əzəli, tarixi ərazilərimizdə Azərbaycan Respublikasının Dövlət Bayrağının ucaldılması qürurumuzun təcəssümüdür. 1993-cü il iyunun 27-də işğal olunan Ağdərə şəhəri bu il sentyabrın 20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində separatçılardan təmizləndi.

### "23 SAAT DAVAM EDƏN ANTİTERROR TƏDBİRLƏRİ BİZİM GÜCÜMÜZÜ GÖSTƏRDİ VƏ YENƏ DƏ DÜŞMƏN AĞ BAYRAQ QALDIRARAQ TƏSLİM OLDU"

1992-ci il oktyabrın 2-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilən Xocavənd şəhəri 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra separatçılardan təmizləndi. Müasir Azərbaycan ordusu öz gücünü, məharətini, peşəkarlığını istənilən vəziyyətdə nümayiş etdirir. "Ordumuzun gücləndirilməsi işində yorulmadan çalışdıq. Elə bir güclü ordu yaratdıq ki, bu gün Azərbaycan Silahlı Qüvvələri istənilən vəzifəni şərəflə yerinə yetirə bilər və biz bunu döyüş meydanında sübut etdik, həm üç il bundan əvvəl Vətən müharibəsi dövründə cəmi 44 gün ərzində düşməni kapitulyasiya aktına imza atmağa məcbur etdik, eyni zamanda, keçən ay cəmi 23 saat davam edən antiterror tədbirləri bizim gücümüzü göstərdi və yenə də düşmən ağ bayraq qaldıraraq təslim oldu. Biz haqlı olaraq Silahlı Qüvvələrimizlə fəxr edirik." Bu fikirlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Xankəndi şəhərində çıxış edərkən bildirib.

Ardı Səh. 3



# QALİB SƏRKƏRDƏ!

## *Prezident İlham Əliyev: "Nəyi, necə, nə vaxt etmək lazımdır, onu mən bilirəm"*







Əvvəli-Səh-2

Dövlət başçısı bu gün yetişən gəncləri vətənpərvərliyini diqqətə çəkib: "Elə bir gənc nəsil yetişdirdik ki, Vətən, torpaq uğrunda ölümə getməyə hazır idi və ölümə də gedirdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz onların ruhu qarşısında baş əyirik. Biz Azərbaycan xalqı olaraq onlara əbədi borcluyuq. Həm üç il bundan əvvəl, həm son üç il ərzində, həm də sentyabr ayında keçirilmiş antiterror əməliyyatı zamanı Azərbaycan əsgəri, zabiti əsl qəhrəmanlıq, vətənpərvərlik, fədakarlıq göstərmişdir. Biz Ordumuzla, Silahlı Qüvvələrimizlə fəxr edirik, onlar bizim qürur mənbəyimizdir. Təkcə Azərbaycan vətəndaşları yox, əminəm ki, dünyada yaşayan on milyonlarla azərbaycanlı Azərbaycan əsgəri və zabiti ilə, Azərbaycan dövləti ilə haqlı olaraq fəxr edir."1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunan Xocalı rayonunun Əsgəran qəsəbəsi öz azadlığına qovuşub. Cari ilin sentyabrında Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində Əsgəran qəsəbəsi də separatçılardan təmizləndi. Bu gün orada Azərbaycan bayrağı dalğalanır.

### "O ÇƏTİN DÖVRDƏN BU GÜNƏ QƏDƏR KEÇDİYİMİZ YOL ŞƏRƏF VƏ LƏYAQƏT YOLUDUR"

Ermənistanın Azərbaycana qarşı işğalçılıq və soyqırımı siyasətinin tərkib hissəsi olan, beynəlxalq hüququn norma və prinsiplərinin, insan hüquq və azadlıqlarının kütləvi şəkildə və kobudcasına pozulması ilə nəticələnən Xocalı soyqırımı erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı uzun müddət davam edən etnik təmizləmə və soyqırımı siyasətinin daha bir dəhşətli nümunəsidir. Xocalıda törədilən əməllər ümumbəşəri dəyərlərə tamamilə ziddir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə törədilən Xocalı soyqırımı nəticəsində, 613 nəfər şəhid olmuş, 487 nəfər ağır yaralanmış, 1430 nəfər əsir götürülərək amansız işgəncələrə məruz qalmış, onların 135 nəfərinin taleyi hələ də məlum deyildir. Şəhid olanların 106 nəfəri qadın, 63 nəfəri uşaq, 70 nəfəri isə qocalar olmuşdur. 8 ailə tamamilə məhv edilmiş, 27 ailənin hərəsindən yalnız bir nəfər sağ qalmışdır. Soyqırımı aktı zamanı öz torpaqlarını tərk etməyə məcbur olan Xocalı sakinləri ölkəmizin 40 rayonunda məskunlaşmışlar. Beləliklə, dünyanın gözü qarşısında ermənilər bəşəriyyət tarixində ən ağır cinayətlərdən birini - Xocalı soyqırımını törətdilər. Xocalı şəhəri 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində separatçılardan təmizləndi. Bu şəhərdə Azərbaycan Bayrağının dalğalanması Xocalı faciəsi qurbanlarının qanının yerdə qalmadığını bir daha nümayiş etdirmiş oldu. Oktyabrın 15-də dövlət başçımızın Xocalı şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltması tarixi bir günə çevrildi. "Bizə qarşı soyqırımı törədilmişdir, Xocalı soyqırımı. Ondan çox ölkə Xocalı soyqırımını tanıyıb, "Xocalıya ədalət!" hərəkatı geniş beynəlxalq vüsət almışdır. Bax, o çətin dövrdən bu günə qədər keçdiyimiz yol şərəf və ləyaqət yoludur. Biz toparlandıq, güc yığdıq. Azərbaycan xalqı 1993-cü ildə öz müdrikliyini bir daha göstərmişdir, Ulu Öndər Heydər Əliyevə dəstək vermişdir, onu prezident vəzifəsinə seçmişdir və o vaxtdan bu günə qədər inkişaf yolu ilə gedir. Son 20 il ərzində isə bu inkişaf daha da sürətlidir və bütün sahələrdə özünü göstərir".



### "HƏR GÜN, HƏR SAAT BİZ BU MÜQƏDDƏS MƏQSƏDƏ DOĞRU GEDİRDİK"

Əlbəttə ki, qazandığımız uğurlar Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyəti, siyasi iradəsinin təzahürüdür. Dövlət başçımız 20 il bundan əvvəl Azərbaycan xalqı qarşısında verdiyi bütün vədləri yerinə yetirib. Prezidentimiz Xankəndi şəhərində çıxışı zamanı bəyan etdi ki, bu gün burada olmağımızın əsas səbəbkarı Azərbaycan xalqıdır. Həqiqətən də, 2003-cü il oktyabrın 15-də müdrik qərarı ilə İlham Əliyevi dövlət başçısı seçən uzaqgörən xalqımız Zəfər yoluna qədəm qoydu. Xalqımız əmin idi ki, Ulu Öndər Heydər Əliyevin bəzi tamamlanmamış işlərini onun davamçısı böyük məharətlə başa çatdıracaq. "İyirmi il bundan əvvəl Prezident kimi öz vəzifə borcumu yerinə yetirməyə başlayanda qarşıma bir nömrəli vəzifə qoymuşdum ki, Azərbaycan Bayrağı o vaxt işğal altında olan bütün ərazilərdə, bütün torpaqlarda, bütün şəhər və kəndlərdə qaldırılsın. Hər gün, hər saat biz bu müqəddəs məqsədə doğru gedirdik. Hər gün biz bu müqəddəs anı yaxınlaşdırırdıq və dəfələrlə deyirdim ki, hər birimiz, hərə öz yerində öz işi ilə bu günü yaxınlaşdırmalıdır", - deyə Prezident vurğulayıb. Ötən illər ərizində Azərbaycan dünya miqyasında özünə layiq yerini tutub. "Azərbaycan xalqı mənə 20 il bundan əvvəl böyük etimad göstərmişdir və bu illər ərzində mən bunu hər zaman hiss etmişəm, bu inam daha da artmışdır. Bu gün vaxtilə - hələ işğal dövründə dediyim sözlər və xalq tərəfindən təkrarlanan sözlər mənim üçün ən böyük mükafatdır. Mən o vaxt demişdim ki, nəyi, necə, nə vaxt etmək lazımdır, onu mən bilirəm. İkinci Qarabağ müharibəsi dayananda da Azərbaycan xalqı bilirdi ki, mən bunu bilirəm. O gündən üç il keçməmiş biz bu gün buradayıq, Xankəndidəyik, Xankəndinin mərkəzindəyik, Azərbaycan Gerbi, Azərbaycan Bayrağı altında. Bu, böyük xoşbəxtlikdir və tarixi hadisədir" - deyə Prezident çıxışında vurğulayıb.

Oktyabrın 16 da Azərbaycan Prezidenti İlham Əliyev Füzuli şəhərində inzibati binanın, üçüncü yaşayış kompleksinin, 240 yerlik uşaq bağçasının, ikinci yaşayış kompleksinin, idman kompleksinin, Qoçəhmədli kəndinin və Cuvarlı kəndinin təməlini qoyub.

***Zümrüd BAYRAMOVA***

# YAP Sədrinin müavini Nepalda keçirilən AEPF-nin 5-ci iclasında iştirak edib




*Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov oktyabrın 14-də Nepalın paytaxtı Katmanduda keçirilən və 16 ölkədən 26 siyasi partiya nümayəndəsinin qatıldığı Asiya-Avropa Siyasi Forumunun (AEPF) 5-ci iclasında iştirak edib.*















Məlumat verilib ki, Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı (ICAPP) və Avropa Parlamentindəki Avropa Mühafizəkarlar və İslahatçılar Qrupunun (ECR) birgə platforması olan AEPF-nin yaradılmasında məqsəd Asiya və Avropanın aparıcı siyasi partiyaları arasında əlaqələri genişləndirməkdir.

İclasda ICAPP Daimi Komitəsinin Sədri, Koreya Respublikasının keçmiş xarici işlər naziri Çunq Eu-yonq, Nepalın sabiq baş naziri, Nepal Kommunist Partiyasının (UML) sədri Xadqa Prasad Şarma Oli, ICAPP Daimi Komitəsinin üzvü, AEPF-nin həmsədri, Nepal Kommunist Partiyasının Beynəlxalq əlaqələr şöbəsinin müdiri Racan Bhattaray və Nepal parlamentinin üzvü, Nepal Konqresi Partiyası Mərkəzi Komitəsinin üzvü, sabiq baş nazir müavini və xarici işlər naziri xanım Sucata Koirala açılış nitqi ilə çıxış ediblər. Sonra AEPF-nin həmsədri, Avropa Parlamentinin Çexiyadan olan deputatı və ECR-ın üzvü Yan Zahradilin moderatorluğu ilə "Dayanıqlı turizmin təşviqi" mövzusunda birinci sessiya keçirilib.

Racan Bhattarayın moderatorluğu ilə "Pandemiyadan sonrakı dövrdə maliyyə sabitliyinin qorunması" mövzusunda keçirilən ikinci sessiyada YAP Sədrinin müavini Tahir Budaqov da çıxış edib. Koronavirus pandemiyasının geniş vüsət aldığı ilk vaxtdan etibarən həm əhalinin sağlamlığını qorumaq, həm də sosial-iqtisadi immunitet yaratmaq məqsədilə respublikamızda həyata keçirilən effektiv mübarizə tədbirlərindən bəhs edən Tahir Budaqov Azərbaycan iqtisadiyyatının pandemiyadan sonrakı mərhələyə hazırlanmasına elə pandemiya dövründə başlandığını vurğulayıb. YAP Sədrinin müavini çıxışında Azərbaycanın pandemiya dönəmində dövlət siyasətinin təkcə milli məzmun kəsb etmədiyini, eyni zamanda, beynəlxalq əhəmiyyət daşıdığını söyləyərək bu kontekstdə Prezident İlham Əliyevin qlobal səviyyədə göstərdiyi təşəbbüsləri - Azərbaycanın uğurla sədrlik etdiyi Türk Şurasının və Qoşulmama Hərəkatının pandemiyaya qarşı mübarizəyə həsr olunmuş Zirvə görüşlərinin keçirilməsini, 2020-ci ilin dekabr ayında BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində Xüsusi sessiyasının baş tutmasını diqqətə çatdırıb.

Azərbaycanın dünya miqyasında "peyvənd millətçiliyi"nə qarşı çıxması, Prezident İlham Əliyevin müxtəlif beynəlxalq təşkilatların tribunalarından birmənalı şəkildə peyvəndlərin ölkələr arasında qeyri-bərabər bölüşdürülməsinin yolverilməzliyi barədə çıxışları, eləcə də Azərbaycanın peyvəndlərə əlçatanlığı olmayan bir neçə ölkəyə vaksinlər və digər yardımlar göndərməsi, Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar həcmində vəsait ianə etməsi də xüsusi qeyd olunub. Tahir Budaqov çıxışında Azərbaycanın pandemiya ilə mübarizədə uğurlarının həm də Ermənistanın növbəti hərbi təxribatlarına cavab olaraq başlayan və Azərbaycanın öz ərazilərini işğaldan azad etməsi, ərazi bütövlüyünü təmin etməsi və tarixi ədaləti bərpa etməsi ilə nəticələnən 44 günlük Vətən müharibəsi fonunda əldə edildiyini vurğulayıb: "Lakin həmin müharibənin yekunu olaraq Azərbaycan, Rusiya və Ermənistan dövlət başçıları tərəfindən imzalanmış Bəyanatla Ermənistanın faktiki olaraq kapitulyasiyanı qəbul etməsinə baxmayaraq, həmin sənədlə öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməməsi, Rusiya sülhməramlı qoşunlarının müvəqqəti yerləşdirildiyi ərazilərdə hərbi təxribatları davam etdirməsi, Azərbaycanın suverenliyinə və konstitusiya quruluşuna təhdid yaradan revanşist hərəkətlərin günü-gündən artması Azərbaycanı 2023-cü il 19 sentyabr tarixində lokal xarakterli antiterror tədbirlərinin keçirilməsinə məcbur etmiş və 24 saat ərzində qanunsuz hərbi birləşmələrin ləğv olunması, ölkənin bütün ərazisi üzərində suverenliyimizin tam bərqərar olunması təmin edilmişdir. Növbəti mərhələdə Azərbaycanın dayanıqlı inkişafının təmin edilməsi, qeyri-neft sektorunun inkişafı, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurun bərpası və orada yaşayan erməni əsilli əhalinin reinteqrasiyası, investisiyaların cəlb olunması, iqtisadi və sosial sahələrdə islahatların davam etdirilməsi ölkəmiz qarşısında duran prioritet vəzifələrdir".

Tahir Budaqov çıxışının sonunda siyasi partiyaları maliyyə sisteminin sabitliyini qorumaq və iqtisadi inkişafın davamlılığını təmin etmək üçün tərəfdaşlıq əlaqələrini gücləndirməyə, bilik və təcrübələrini bölüşməyə, daha sıx koordinasiyalı fəaliyyət qurmağa çağırıb.

İclasın sonunda AEPF-nin yenilənmiş fəaliyyət qaydaları və aparılmış müzakirələrin əsas nəticələrini özündə əks etdirən Katmandu Bəyanatı qəbul edilib.

Günün sonunda iştirakçılar Nepal Kommunist Partiyasının Sədri Şarma Olinin adından verilən şam yeməyinə qatılıblar. Səfərin sonuncu günü, oktyabrın 15-i mədəni proqram çərçivəsində iştirakçıların Himalay dağlarının ətəyində yerləşən Dhulikhel və Nepalın qədim mədəniyyət mərkəzi olan Bhaktapur şəhərlərinə ziyarəti təşkil olunub.

# Dünya mediası Prezident İlham Əliyevin Xankəndiyə səfərindən yazır



















Prezident İlham Əliyevin oktyabrın 15-də Xankəndiyə, həmçinin Qarabağın digər rayon və şəhərlərinə səfəri, orada ölkəmizin üçrəngli Bayrağını ucaltması və çıxışında səsləndirdiyi fikirlər dünya mediası tərəfindən geniş işıqlandırılıb.

Türkiyənin Anadolu Agentliyi, "TRT Haber", "NTV", Haber Global, "Hürruyet", "CNN türk", "İHA", "Sözcü", "Habertürk", "YeniAkit", "Yeniçağ", "Sabah" və bir çox digər media qurumları tərəfindən yayımlanan xəbərlər "Xankəndidə Azərbaycan Bayrağı ucaldıldı", "Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Bayrağını Xankəndidə və Xocalıda qaldırıb" kimi başlıqlarla verilib.

Materiallarda Azərbaycanın Qarabağdakı erməni silahlı qruplaşmalarına qarşı apardığı qətiyyətli mübarizənin qələbə ilə nəticələnməsi, bunun ardınca Prezident İlham Əliyevin oktyabrın 15-də bölgənin mərkəzi şəhəri olan Xankəndidə Azərbaycan Bayrağını ucaltmasından söz açılıb. Bunun tarixi hadisə kimi mühüm əhəmiyyət daşıdığı vurğulanıb.

Xəbərlərdə, həmçinin "Azərbaycan Prezidenti İlham Əliyev Qarabağdakı işğalçı rejimin vaxtilə "paytaxt" hesab etdiyi Xankəndi şəhərində və 1992-ci ildə 613 dinc sakinin qətlə yetirildiyi Xocalıda Azərbaycan Bayrağını ucaldıb", "Azərbaycan Ordusunun Qarabağda separatçı ermənilərə qarşı başlatdığı antiterror tədbirləri 24 saat ərzində qələbə ilə nəticələndikdən sonra Prezident İlham Əliyev Azərbaycanın nəzarətində olan rayonlara səfər edib", "Azərbaycan Ordusunun sentyabrın 19-da başlatdığı və 24 saat ərzində qələbə ilə nəticələnən tədbirlərdən sonra Azərbaycan nümayəndələri ilə Qarabağdakı erməni əhalisinin nümayəndələri arasında dialoq prosesi başlayıb", "Azərbaycanın Qarabağ bölgəsində qondarma rejim sentyabrın 28-də özünü buraxdığını açıqlayıb" kimi informasiyalar oxuculara çatdırılıb.

"Sabah" portalının yaydığı məlumatda Prezident İlham Əliyevə istinadla bildirilib: "Burada (Dağlıq Qarabağ Muxtar Vilayətinin partiya komitəsinin binası – red.) oturmuş özünü "prezident" adlandıran 3 təlxək bu gün öz layiqli cəzasını gözləyir. Bu binaların birində oturmuş, özünü "baş nazir" adlandıran bir adam görəsən bu gündəmi bizi hədələməyə cürət edəcək? Onun da çayı bu gün istintaq təcridxanasında verilir".

"YeniAkit" saytının yaydığı məqalədə Prezident İlham Əliyevin bu fikirləri yer alıb: "Bu gün burada (Xankəndi – red.) olmağımızın əsas səbəbkarı Azərbaycan xalqıdır, Azərbaycan övladıdır. Elə bir gənc nəsil yetişdirdik ki, Vətən, torpaq uğrunda ölümə getməyə hazır idi və ölümə də gedirdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz onların ruhu qarşısında baş əyirik. Biz Azərbaycan xalqı olaraq onlara əbədi borcluyuq".

Məqalədə dövlətimizin başçısının iyirmi il bundan əvvəl Prezident kimi vəzifə borcunu yerinə yetirməyə başladığı zaman Azərbaycan Bayrağını o vaxt işğal altında olan bütün ərazilərdə qaldırılmasını qarşısına bir nömrəli vəzifə olaraq qoyduğu vurğulanıb.

"Sözcü" qəzetində yer alan yazıda isə Azərbaycan Prezidentinin Xankəndi şəhərindəki çıxışından bu sitat gətirilib: "Həm üç il bundan əvvəl, həm son üç il ərzində, həm də sentyabr ayında keçirilmiş antiterror əməliyyatı zamanı Azərbaycan əsgəri, zabiti əsl qəhrəmanlıq, vətənpərvərlik, fədakarlıq göstərmişdir. Biz Ordumuzla, Silahlı Qüvvələrimizlə fəxr edirik, onlar bizim qürur mənbəyimizdir. Təkcə Azərbaycan vətəndaşları yox, əminəm ki, dünyada yaşayan on milyonlarla azərbaycanlı Azərbaycan əsgəri və zabiti ilə, Azərbaycan dövləti ilə haqlı olaraq fəxr edir".

Rusiyanın "Moskovski komsomolets" nəşri bu xəbəri Azərbaycan Prezidentinin rəsmi saytına istinadla yayıb. Eyni zamanda, nəşr Prezident İlham Əliyevin Ağdərədə də Azərbaycan Bayrağını ucaltdığını qeyd edib.

Rusiya Dövlət Dumasının rəsmi nəşri olan "Parlamentskaya qazeta" xatırladır ki, Azərbaycan Ordusu sentyabrın 19-da antiterror tədbirləri keçirib və nəticədə sentyabrın 28-də qondarma "Dağlıq Qarabağ respublikası"nın buraxılması barədə sənəd imzalanıb.

TASS agentliyi yazır ki, 20 il əvvəl məhz bu gün İlham Əliyev Azərbaycan Prezidenti seçilib. Dövlətimizin başçısının Xankəndidəki çıxışından fikirlərə yer ayıran agentlik qeyd edir ki, Prezident İlham Əliyev 20 il əvvəl xalqa müraciətində Azərbaycan xalqının və dövlətinin maraqlarını daim qoruyacağına söz vermişdi. "Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi", - deyə dövlətimizin başçısının çıxışından sitat gətirilib.

"Vedomosti" nəşri qeyd edir ki, Azərbaycanın keçirdiyi antiterror tədbirlərindən sonra sentyabrın 21-də Yevlaxda Qarabağın erməni sakinlərinin nümayəndələri və Azərbaycan hakimiyyətinin nümayəndələri arasında görüş keçirilib. Nəşr vurğulayır ki, qondarma qurumun buraxılmasından sonra Azərbaycan Prezidenti regionda sülh müqaviləsinin imzalanması üçün daha münasib şəraitin yarandığını qeyd edib. "Vedomosti" AZƏRTAC-a istinadla dövlətimizin başçısının Xankəndidə üçrəngli Bayrağımızı ucaltdığını da diqqətə çatdırır.

"NTV" telekanalının xəbərində bildirilir ki, Azərbaycan Prezidenti İlham Əliyev respublikanın üçrəngli Bayrağını Qarabağın "paytaxtı"nda ucaldıb. Telekanal Qarabağ ətrafında baş verən son hadisələri xatırladaraq yazır ki, bir neçə raund davam edən danışıqlardan sonra tərəflərin region əhalisinin Azərbaycan cəmiyyətinə inteqrasiyası barədə razılığa gəliblər.

"REN TV" telekanalı AZƏRTAC-a istinadla yaydığı xəbərdə Prezident İlham Əliyevin Xankəndidə Dövlət Bayrağını ucaltdığı vurğulanır. Diqqətə çatdırılır ki, eyni vaxtda Xankəndidəki inzibati binanın üzərində Azərbaycanın Dövlət Gerbi də quraşdırılıb.

Digər Rusiya telekanalı olan "TVTS"nin materialında Azərbaycan Prezidenti İlham Əliyevin Xankəndidə Dövlət Bayrağını ucaltdığını, eləcə də Suqovuşan qəsəbəsində istirahət parkının açılışında və Suqovuşan su anbarının istismara verilməsi mərasimində iştirak etdiyi bildirilir.

"Arqumentı i faktı" nəşri Azərbaycan Prezidenti İlham Əliyevin Xankəndidə Dövlət Bayrağını ucaltmasını mühüm hadisə kimi qiymətləndirib. Materialda qeyd olunur ki, Azərbaycan Prezidentinin Administrasiyası Qarabağın erməni əhalisinin reinteqrasiyasının ətraflı planını təqdim edərək, onların bütün hüquqlarının və təhlükəsizliyinin təmin olunacağına vəd verib.

"Veçernyaya Moskva" qəzeti də Xankəndidə Dövlət Bayrağımızın ucaldılması xəbərini AZƏRTAC-a istinadla yayıb. Qəzet vurğulayır ki, Azərbaycan Prezidenti İlham Əliyev məhz Fransanın Ermənistanı silahlandırması nəticəsində regionda yeni silahlı qarşıdurma baş verə biləcəyi barədə xəbərdarlıq edib.

Bundan əlavə, "Qazeta.ru", "Kommersant", "Rossiyskaya qazeta", "Voennoye delo", "İnterfaks", "Fontanka.ru", "İzvestiya" və bir çox digər Rusiya nəşrləri də Azərbaycan Prezidentinin Xankəndiyə səfəri və çıxışını geniş işıqlandırıb.

Azərbaycan Prezidentinin Qarabağa səfəri Bosniya və Herseqovina mediasının diqqət mərkəzində olub.

Bu ölkənin "Fena", "Slobodna Bosna", "Federalna", "Dnevnik", "Avaz", "Vijesti" və "Hayat" kimi informasiya agentliklərinin yaydığı xəbərlərdə Prezident İlham Əliyevin Xankəndi şəhərinə səfərinə geniş yer ayrılıb. Yazılarda Prezident İlham Əliyevin Xankəndi şəhərində Azərbaycanın Dövlət Bayrağını ucaltdığı və çıxış etdiyi diqqətə çatdırılır.

# YAP Sədrinin müavini ICAPP Daimi Komitəsinin 40-cı iclasında iştirak edib



*Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Nepalın paytaxtı Katmanduda keçirilən Asiya-Avropa Siyasi Forumunun 5-ci iclası çərçivəsində Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı (ICAPP) Daimi Komitəsinin (DK) 40-cı iclasında iştirak edib.*

İclasda çıxış edən DK-nın Sədri, Koreya Respublikasının keçmiş xarici işlər naziri Çunq Eu-yonq Daimi Komitənin yeni üzvlərini təqdim edib. O, YAP Sədrinin müavini Tahir Budaqovun Yeni Azərbaycan Partiyasının DK-dakı yeni təmsilçisi qismində fəaliyyətinin ICAPP-ın qarşıya qoyduğu hədəflərə çatmasına və ICAPP-YAP əlaqələrinin inkişafına töhfə verəcəyinə əminliyini bildirib. O, həmçinin YAP-ın təşkilatın bir çox tədbirlərinə uğurla ev sahibliyi etdiyini və ICAPP-ın ən fəal üzvlərindən biri olduğunu vurğulayıb.

Sonra çıxış edən YAP Sədrinin müavini Tahir Budaqov yüksək təşkilatçılığa və qonaqpərvərliyə görə ICAPP rəhbərliyinə və tədbirlərə ev sahibliyi edən Nepal Kommunist Partiyasına (UML) təşəkkürünü bildirib. O, ICAPP-ın yeni baş katibi Kvon Heseoqu təyinatı münasibətilə təbrik edərək fəaliyyətində uğurlar arzulayıb. Tahir Budaqov YAP ilə ICAPP arasında səmərəli əməkdaşlığın bundan sonra da yüksələn xətlə inkişaf edəcəyinə əminliyini ifadə edib. O, bu məqsədlə yaxın gələcəkdə ICAPP üzvlərinin də fəal iştirakı ilə qurumun növbəti tədbirlərindən birinin Bakıda keçiriləcəyinə ümidvar olduğunu bildirib.

Daha sonra çıxış edən ICAPP Daimi Komitəsinin həmsədri və xüsusi məruzəçisi, Pakistan Senatının Müdafiə komitəsinin sədri Müşahid Hüseyin Sayed dünyada sülhün və təhlükəsizliyin önəmini vurğulayaraq Azərbaycanın Qarabağ məsələsini beynəlxalq hüquq normaları və BMT Təhlükəsizlik Şurasının müvafiq 4 qətnaməsi əsasında həll etməsi və ərazi bütövlüyünün tam bərpasına nail olması münasibətilə YAP Sədrinin müavininə təbriklərini çatdırıb və ona DK üzvü kimi fəaliyyətində uğurlar arzulayıb. İclasda ICAPP Daimi Komitəsinin cari il ərzində fəaliyyətinə nəzər salınıb, gələcək planlarına dair fikir mübadiləsi aparılıb, 2023-2024-cü illər üçün ICAPP-ın fəaliyyət proqramı və digər məsələlər müzakirə edilib





# 17 oktyabr: Gəncənin yaşadığı növbəti terror




Azərbaycan xalqı ermənilər tərəfindən tarixi dövrlərdə soyqırıma məruz qalmışdır. Ermənilərin Azərbaycan torpaqlarında törətdikləri terrorçuluq, işğalçılıq, soyqırımı bunu təsdiqləyir. Tarixə diqqət etsək görərik ki, iki yüz ilə yaxın bir dövrdə təcavüzkar erməni millətçiləri tərəfindən xalqımıza qarşı yeridilən soyqırımı siyasətinin acı nəticələrini yaşamışıq. Ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı nəticəsində xalqımız misli görünməmiş faciələlər yaşamışdır. 1918-ci ildə Bakıda və Azərbaycanın digər bölgələrində ermənilərin törətdikləri qırğın Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycan xalqının dinc həyatına ağır zərbələr vurmuşdur. Belə ki, ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri aramsız soyqırım və deportasiya siyasəti Azərbaycan xalqının yer üzündən tam silmək kimi iyrənc niyyətlərini göstərmiş olur. Mart hadisələri - Şamaxıda, Qubada, Muğanda, Zəngəzur qəzasında, Qarabağda, İrəvan quberniyasında və ölkənin digər ərazilərində azərbaycanlıların amansızlıqla qətlə yetirildiyini, şəhər və kəndləri talan edilərək dağıdıldığını sübut edir. 1992-ci ilin Xocalı soyqırımı ilə ermənilər Xocalının yer üzündən silinməsini və məhv olmasını reallaşdırdılar. Erməni terrorçularından yayınıb meşələrə və dağlara qaçan insanların çoxu soyuqdan və şaxtadan məhv oldular. Xocalı şəhəri isə yer üzündən silindi. 1992-ci ilin aprel ayının 8-də baş verən Ağdaban soyqırımı tarixdə bəşəriyyətə qarşı törədilmiş ən böyük cinayətlərdən biri kimi yazıldı. 1992-ci il fevralın 17-də Xocavənd rayonunun Qaradağlı kəndində Ermənistan silahlı qüvvələri və Rusiyanın 366-cı alayı tərəfindən törədilən Qaradağlı qətliamı da Qarabağ münaqişəsi zamanı baş vermişdir. Nəticədə xeyli sayda mülki azərbaycanlı şəxslər ermənilər tərəfindən qətlə yetirilmiş, bir o qədər də əsir alınmışdır. 117 nəfər əsir alınmış, 66-90 nəfər mülki şəxs isə qətlə yetirilmişdir. Öldürülənlərdən 21-i ahıl və qocalar, 10-u qadın, 8-i məktəbli olub. 146 uşaq yetim qalıb. İşğal nəticəsində kənddə 200 yaşayış evi, 1 mədəniyyət evi, 320 yerlik orta məktəb, 25 çarpayılıq xəstəxana binası və digər sosial obyektlər dağıdılıb. Tarixinizdə belə hadisələr kifayət qədərdir.

## HUMANİTAR ATƏŞKƏSİN POZULMASI: MÜHARİBƏ VƏ İNSANLIQ CİNAYƏTLƏRİ

44 günlük müharibə dövründə də erməni vandallığının, terrorunun acılarını da yaşadıq. Vətən müharibəsi dövründə dinc insanlara, mülki əhaliyə qarşı etdikləri əməllər, işğaldan azad olan torpaqlarımızı tərk edərkən törətdikləri yanğınlar erməninin faşist ideologiyasının təzahürüdür. Ermənistanın ötən əsrin 90-cı illərində olduğu kimi, Vətən müharibəsində də törətdikləri terrorçuluq dünyanın nüfuzlu nəşrlərində və sosial şəbəkələrdə yer aldı. Ermənistanın beynəlxalq konvensiyalara zidd topladığı silahlarla Gəncə, Tərtər, Mingəçevir kimi yerlərdə də mülki əhalinin kompakt yaşadığı ərazilərdə raket zərbələri endirməsi, Ermənistan hökumətinin təcavüzkar, terrorçu simasını bir daha ortaya qoymuş oldu. Döyüş meydanında sarsıdıcı məğlubiyyətə uğrayan Ermənistanın cəbhə xəttindən uzaqda yerləşən yaşayış məntəqələrini və mülki obyektləri hədəfə aldı.

Beynəlxalq hüququn norma və prinsipləri, o cümlədən beynəlxalq humanitar hüquq, eləcə də 2020-ci ilin oktyabrın 10-da Moskvada qəbul olunmuş humanitar atəşkəsi Ermənistan kobud şəkildə pozaraq mülki insanların məqsədli şəkildə öldürülməsi müharibə cinayəti və insanlıq əleyhinə cinayətdir. Rusiyanın vasitəçiliyi ilə oktyabrın 10-da humanitar atəşkəs razılaşmasını da kobudcasına pozan Ermənistan silahlı qüvvələri Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəni bir neçə dəfə "Elbrus" ballistik raketlərlə bombaladılar. Oktyabrın 17-də gecə saatlarında Gəncəyə edilən növbəti qəddar hücum nəticəsində 13 mülki şəxs, o cümlədən 2 uşaq həyatını itirdi, 45-dən çox insan ağır yaralandı. Dinc əhaliyə qarşı törədilən bu amansızlıqlar müharibə cinayətidir.

## “GƏNCƏ AZƏRBAYCANIN DÖYÜNƏN ÜRƏYİDİR VƏ HEÇ KƏS HEÇ VAXT ONUN SAKİNLƏRİNİN MƏĞRUR RUHUNU SINDIRA BİLMƏZ!”

”Bu gecə erməni təcavüzkarları Gəncəyə xaincəsinə hücum ediblər. Niyyət sadə və eyni zamanda, dəhşətlidir – mümkün qədər çoxsaylı dinc sakinləri məhv etmək, panika yaratmaq, Azərbaycan xalqını qorxutmaq. Lakin təcavüzkar heç vaxt öz çirkin məqsədlərinə nail olmayacaq. Bu şanlı şəhərin sakinləri ruhən çox güclüdürlər! Gəncə - Nizamidir, Məhsətidir, Vazehdir! Lakin Gəncə təkcə Azərbaycanın mədəni irsi deyil. Gəncə - qədim dövlətçiliyimizin beşiyidir. Bu, sarsılmaz dözüm, mərdlik və igidlik rəmzidir! Gəncə Cavadxanın yurdudur. Bu şəhər Şərqdə ilk demokratik cümhuriyyətin müstəqilliyi uğrunda sona qədər vuruşmuş şəhərdir. Gəncə Azərbaycanın döyünən ürəyidir və heç kəs heç vaxt onun sakinlərinin məğrur ruhunu sındıra bilməz!” Bu fikirlər 17 oktyabr 2020-ci ildə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Ermənistanın Gəncədə törətdiyi terror aktı ilə bağlı rəsmi ”Instagram” səhifəsində yer almışdır.

Gecə radələrində düşmənin törətdiyi bu vandal aktının cavabı isə dərhal verildi. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev oktyabrın 17-də səhər saatlarında xalqa müraciət etdi. Dövlətimizin başçısı müraciətində düşmənə döyüş meydanında layiqli cavab verdiyimizi vurğuladı və Füzuli şəhərinin, rayonun bir sıra kəndlərinin işğaldan azad olunduğunu elan etdi. Bu, Ermənistana, onun rəhbərliyinin törətdiyi cinayətlərə ən tutarlı cavab oldu. Ardınca isə Azərbaycan Respublikası Müdafiə Nazirliyi döyüş meydanında düşmənin çoxlu sayda canlı qüvvəsinin və hərbi texnikalarının məhv edilməsi anlarını əks etdirən videogörüntüləri yaydı. Bu görüntülər də Gəncə terroru qurbanlarının qanının yerdə qalmadığının bir daha əyani şəkildə göstərmiş oldu. Gəncədə törədilən terror günü Füzulinin işğaldan azad edilməsi xəbərini xalqımız aldı. Birinci vitse-prezident Mehriban Əliyeva Ermənistanın Gəncəyə növbəti raket hücumu ilə bağlı rəsmi ”Instagram” səhifəsində etdiyi daha bir paylaşımda belə yazırdı: ”Nə dərəcədə insanlıqdan uzaq, yırtıcı olmalısan ki, şəhərin heç bir hərbi infrastrukturun olmadığı yaşayış məhəllələrinə gecə vaxtı, sakinlər yatarkən raket zərbələri endirilməsi barədə növbəti dəfə əmr verəsən? Bu gecə Gəncəyə xaincəsinə edilən hücum təkcə Ermənistan hakimiyyətinin faşist mahiyyətinə və onun prinsipsizliyinə dəlalət etmir, həm də təcavüzkarın Azərbaycan Ordusu qarşısında total acizliyinin təzahürüdür.

Ermənistanın 30 ilə yaxın Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirməsinə baxmayaraq, Ali Baş komandanın siyasi iradəsi, dövlətimizin gücü, rəşadətli ordumuzun dönməzdiyi həsrətlə yolumuzu gözləyən tarixi torpaqlarımıza yol açdı. 2020-ci ilin sentyabrın 27-də Ermənistan ordusunun təxribatlarına qarşı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə başlayan genişmiqyaslı Vətən müharibəsində Zəfər qazandıq. İşğal altında olan torpaqlarımız düşməndən azad olundu.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Beynəlxalq səviyyəli iki yalan



***Azərbaycan kinematoqrafçılarının çəkdiyi "Yuxu" filminə yəqin ki, baxmısınız. Orada bir epizod var, polis rəisi İraqda neft sahəsində çalışan gələcək kürəkəni ilə telefon söhbəti zamanı qızının guya qaçırıldığı barədə xəbəri eşidəndən sonra "mən elə bilirdim ki, dedi-qodu təkcə bizdədir, sən demə oralar lap "mejdunarodu" (yəni beynəlxalq – müəllif) imiş ki" deyə gileylənir. O kişinin sözü olmasın, mən dedi-qodu eşitmişdim, amma beləsini yox. Ermənilər bu yola da əl atdılar, yalanı, dedi-qodunu lap beynəlxalq səviyyəyə qaldırdılar.***

RAKURS

Əvvəlcə, gələn il ABŞ-də keçiriləcək prezident seçkiləri üçün namizədliyini irəli sürən Vivek Ramasvaminin səriştəsizliyindən istifadə edən ermənilər onun dili ilə Azərbaycana qarşı qərəzli ittihamlar irəli sürdülər. Hind əsilli siyasətçi təşviqat xarakterli müsahibəsində ermənilər tərəfindən Gəncə və Bərdə şəhərlərinə raket hücumunun kadrlarını nümayiş etdirərək izləyicilərə yalan məlumat verdi. Kadrlarda raket hücumuna məruz qalanların ermənilər olduğunu bildirdi. Vivek Azərbaycanı ittiham edərkən fonda gedən kadrlar Ermənistanın törətdiyi Gəncə və Bərdə terrorundan olub. Bu görüntülərlə bağlı Azərbaycan Prezidenti İlham Əliyev də danışdı və videosüjeti sərt tənqid etdi. Bildirdi ki, İkinci Qarabağ müharibəsi zamanı Ermənistan münaqişə zonasından yüz kilometrlərlə uzaqda yerləşən şəhərlərimizi uzaqmənzilli artilleriyadan, o cümlədən ballistik raketlərdən atəşə tutdu. Bunun nəticəsində bizim uşaqlar da daxil olmaqla, yüzdən artıq mülki vətəndaşımız həyatını itirdi. Məhz sözügedən həmin namizəd, Azərbaycanı ittiham edərək, ermənilərin Gəncəyə və Bərdəyə hücumlarının kadrlarını nümayiş etdirir. İndi bu insanlarla necə danışmaq olar, onlara nəyi izah etmək olar? Onlar heç nə eşitmək istəmirlər. Onlar mərkəzdən verilən təlimata uyğun hərəkət edirlər.

Kələklərinin üstünün açıldığını hiss edincə Amerika Erməniləri Milli Komitəsi (ANCA) həmin kadrları öz səhifələrindən dərhal yığışdırdılar. Bəli, ermənilər belədir, yalanları ifşa olunana qədər gedirlər, dişləri daşa, başlarına yumruq dəyəndə qəflət yuxusundan oyanırlar, ya da fikirlərini dəyişirlər. İndiyə qədər Qarabağ həqiqətlərinin niyə dünya birliyi tərəfindən qəbul edilməməsinin sirrini də burada axtarmaq lazımdır. Dünyanın bəzi mərkəzlərinə erməni təbliğatını aparmaq, müsəlman Azərbaycana qarşı dişini qıcamaq sərf edir. Çünki ermənilər rüşvəti dollarla, virtual valyutalarla etməyin yollarını çox yaxşı bilirlər. Onların təbliqini izləmək də çətinlik törədir. Sonra da, "Qərb dünyası rüşvətin nə olduğunu bilmir" yalanları ilə özümüzü ovudururuq. Əksinə, onları korrupsiya və rüşvəti "mejdunarodnu"dur.



Ermənilərin növbəti beynəlxalq yalanı bir az danışdığımız dedi-qodu ilə daban-dabana gəldi. Məsələ burasındadır ki, Ermənistanda ikinci Qarabağ müharibəsindən sonra Azərbaycanın Zəngəzur dəhlizi adlanan ərazidən hərbi yolla Naxçıvana keçmək planlarından daim danışılır. "Politico" nəşri isə yazıb ki, ötən həftə ABŞ-ın Dövlət Katibi Antoni Blinken kiçik konqresmenlər qrupuna Bakının yaxın həftələrdə Ermənistana hücum planları barədə xəbərdarlıq edib. Nəşr onu da xatırladıb ki, bu yaxınlarda Azərbaycan prezidenti İlham Əliyev İrəvanı öz eksklavına yolu açmağa çağırıb və bundan imtina etsə, problemi "zorla" həll edəcəyi ilə hədələyib. Bundan əlavə, onlar bildiriblər ki, Vaşinqton Azərbaycana 2002-ci ildən verilən hərbi dəstəyi uzatmağı planlaşdırmır. Eyni zamanda, Politico-nun məlumatına görə, Blinken Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli cəhdlərinin uğur qazanacağına inanmaqda davam edir.

Antoni Blinkenin"fikrinə" rəsmi dairələrdə tam fərqli reaksiya verdilər. Dünya mətbuatı, eyni zamanda yerli media bu xəbərin ABŞ tərəfindən ortaya atılmış bəhanə kimi qəbul etdi. Hətta, bunun Azərbaycana qarşı sanksiyaların tətbiqinə gətirib çıxaracağını, o cümlədən növbəti gərginliyin baş verəcəyini deyənlər də az olmadı. Məsələnin dövlətlərarası qalmaqala səbəb olacağı təhlükəsi rəsmi Vaşinqtonu hərəkətə gətirdi. Ağ Ev administrasiyası "Politico" nəşrini yalnız ikinci cəhddə təkzib etdi. Erməni mediası ABŞ Dövlət Departamenti ilə ən azı iki dəfə nəşrin doğruluğunu aydınlaşdırmağa çalışıb. Departament ilk dəfə cavab verib ki, Vaşinqton münaqişənin bütün tərəfləri ilə ən yüksək səviyyədə əməkdaşlıq edir, "ləyaqətli və davamlı sülhə" çalışır. Eyni zamanda, güc tətbiqinin qəbuledilməz olduğunu vurğulayıblar. İkinci dəfə Dövlət Departamenti daha aydın cavab verib: "ABŞ Ermənistanın suverenliyini və ərazi bütövlüyünü qəti şəkildə dəstəkləyir. Biz vurğuladıq ki, bu suverenliyin və ərazi bütövlüyünün istənilən pozulması ciddi nəticələrə gətirib çıxaracaq. "Politico" nəşrinin məqaləsindəki məlumat yanlışdır və dövlət katibi Blinkenin qanunvericilərə dediklərini heç bir şəkildə əks etdirmir".



Buna baxmayaraq, oktyabrın 9-da Ermənistanın Aİ-dəki səfiri Tiqran Balayan "Brussels Signal"-a müsahibəsində bildirib ki, İrəvan "bir neçə həftə ərzində" Azərbaycandan hücum gözləyir. Onun fikrincə, ölkə "birbaşa işğal təhlükəsi altındadır".

Erməni politoloq Arşaluys Mqdesyan da əmindir ki, iki ölkə arasında hərbi toqquşma ehtimalı jurnalistlərin uydurması deyil, real təhlükədir. "Ermənilərin Qarabağı tərk etməsi Bakı ilə İrəvan arasında münaqişənin sona çatması demək deyil. Xüsusilə kommunikasiyaların blokdan çıxarılması ilə bağlı digər problemli məsələlər də var. Eyni zamanda, Azərbaycan Türkiyə ilə tandemdə fəaliyyət göstərir. Xüsusən də Zəngəzur dəhlizi mövzusunu növbə ilə qaldırırlar", - erməni ekspert qeyd edib.

Onun fikrincə, danışıqlar prosesinin indiki mərhələsində Əliyev qərara gələ bilər ki, o, artıq Avropa İttifaqından və ABŞ-dan lazım olan hər şeyi alıb. Xüsusilə, ermənilərin köçürülməsi Qərbdə kəskin tənqidlərə səbəb olmadı və Azərbaycana qarşı sanksiyalara səbəb olmadı. "Bu baxımdan Əliyev danışıqları onun kimi Zəngəzur dəhlizinin, yəni xüsusi statuslu yolun açılmasında maraqlı olan Rusiyaya ötürməyə cəhd edə bilər, məsələn, təhlükəsizliyi təmin edəcək rus ordusu. Danışıqlar uğur qazanmasa, münaqişənin eskalasiyasını gözləmək olar", - deyə Mqdesyan yekunlaşdırıb.




Öz növbəsində azərbaycanlı politoloq İlqar Vəlizadə ermənilərin narahatlığını onların Qarabağ münaqişəsini düzgün anlamamasının əksi hesab edir. "Azərbaycan Qarabağı azad edəndə öz ərazisi daxilində hərəkət etdi. Heç kim başqasının torpağına hücum etmək fikrində deyil. Bunu bu günlərdə Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov da deyib. Eyni zamanda Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan qeyd edib ki, Zəngəzur dəhlizi olmasa, yol İrandan keçəcək, yəni nə Ankara, nə də Bakı Ermənistanda hərbi əməliyyat planlaşdırmır", - Vəlizadə əmin edib.

O, "Politico" nəşrini İrəvanın Qərb ölkələri ilə flört etmək cəhdləri ilə əlaqələndirir. "Əgər Zəngəzur bölgəsində hərbi əməliyyatlar başlasa, bu, Azərbaycanla İrəvanın üzvü olduğu KTMT, eyni zamanda həmin ərazidə sərhədçiləri olan Rusiya və Zəngəzur dəhlizinin sərhədi boyunca keçməli olan İran arasında toqquşmaya səbəb olacaq. Bakının belə risklərə ehtiyacı yoxdur", - Vəlizadə izah edib.

Digər tərəfdən, İrəvan qonşusu ilə mövcud problemləri həll etməyə deyil, münaqişədən ABŞ və Avropa İttifaqı ilə danışıqlarda istifadə etməyə çalışır. Görünür, o, Rusiyanın zəif olduğunu və ona heç bir şəkildə kömək edə bilməyəcəyini açıq şəkildə bildirir.

Bu arada Rusiya prezidenti Vladimir Putin MDB-nin Bişkek sammitində çıxışı zamanı bildirib ki, Moskva Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanmasına yardım etməyə hazırdır. Xüsusilə, Kreml danışıqlar üçün platforma verə bilər. Postsovet Araşdırmaları Mərkəzinin Qafqaz sektorunun baş elmi işçisi Aleksandr Krılov xəbərdarlıq edir ki, tərəflərin barışması yeganə mümkün ssenari deyil. Regionda vəziyyət son dərəcə qeyri-sabitdir. 44 günlük müharibədən 3 il keçib və kommunikasiyalar hələ də açılmayıb. Krılov hesab edir ki, əgər hər şey 2020-ci il üçtərəfli atəşkəs razılaşmasına uyğun getsəydi, hər şey artıq razılaşdırılardı. Amma Qərb Rusiyanın regionda təhlükəsizliyin təminatçısı kimi çıxış etməməsi üçün hər şeyi edir, ona görə də problemlər həll olunmamış qalır. Eyni zamanda Qərbin özü də heç nə vermir. Bölgə daha böyük Yaxın Şərqin bir hissəsinə çevrilərək, onun mövcudluğunu təhlükə altına ala bilər.




**V.VƏLİYEV**

# Ötən 20 il: zaman sübut etdi ki...



***20 il... Heç də uzaq keçmiş deyil. Hər birimizin yaşadığımız, hər ayına, anına şahidlik etdiyimiz zaman kəsiyidir. Elə bu səbəbdən də ötən 20 il hər bir hadisəsi ilə gözlərimiz önündə olduğu kimi canlanır: Düşünülmüş siyasət nəticəsində Azərbaycanın gündən-günə inkişafı, tərəqqisi ilə canlanır. Dövlətimizin sıravi vətəndaşından tutmuş müəllimə, həkimə, mühəndisə, elm xadimlərinə, uşaqdan-böyüyə hər kəsə qayğısı ilə canlanır.***

Dövlət rəhbərinin ölkənin qaçqınına, köçkününə, şəhidinə, qazisinə, ümumilikdə hər bir vətəndaşına ehtiramı ilə canlanır. Ötən 20 ildə ölkənin iqtisadi gücünün ordu quruculuğuna yönəldilməsi, torpaqlarımızın bir gün işğaldan azad olunması üçün böyükmiqyaslı tədbirlərin həyata keçirilməsi ilə canlanır.

Ordu quruculuğu məsələsinin üzərində bir qədər dayanmaq istərdim. Çünki ötən 20 il daha çox torpaq və ordu ifadələri ilə yaddaşlarda qalıb. Ölkəmizdə insanlar illərlə torpaq həsrəti ilə yaşayıb. Şərəf məsələsi olduğu üçün bu, ümumilikdə hər bir vətəndaşın problemi idi. Xalq hərtərəfli inkişaf edən bir ölkədə yaşasa da, onun "Qarabağ" adlı 30 illik bir dərdi vardı ki, sağalmasını, şəfa tapmasını gözləyirdi. Məcburi köçkünlərimiz yurd həsrəti ilə rahatlıq tapa bilmirdi. Onlar öz torpaqlarını istəyirdi. Qarabağ Azərbaycanın yarası idi. Həmin yara sağalardısa, Azərbaycan tam ola bilərdi. Bunu isə yalnız dövlətin başçısı, Ali Baş Komandan, milli ordunun sərkərdəsi həll edə bilərdi.

Xalq Qarabağın daha tez, hətta 90-cı illərdə işğaldan dərhal sonra azad olmasını arzulayırdı, lakin ölkənin buna imkanları çatırdımı? Bu arzu yalnız ölkə buna hazır olanda reallaşa bilərdi. Elə ötən 20 ilin prioriteti də məhz bu məsələnin üzərində qurulmuşdu.

## 20 ilə nəzər salanda...

2003-cü ildə hakimiyyətə gəldiyi ilk gündən dövlətimizin başçısı cənab İlham Əliyev torpaqların bir gün azad olunacağını ən mötəbər kürsülərdən tutmuş xalqına hər il bayramlarla bağlı müraciətlərində də vurğulayırdı. Böyük inamla vurğulayırdı. Tarixi faktlarla bu torpaqların heç vaxt ermənilərə məxsus olmadığını əsaslandırırdı. Dünyanı ədalətli olmağa dəvət edirdi. Qan axıdılmadan, insanlar məhv olmadan-sülh yolu ilə Qarabağ məsələsinin həll olunması üçün dünyaya çağırış edirdi. Nəzər saldığımız 20 ilin tək 10 ili əslində müharibəyə addım-addım yaxınlaşdığımızı açıqca göstərir və sübut edir.

## Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev:

2010-cu il. Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyildir, olmayıbdır və heç vaxt olmayacaqdır. Dağlıq Qarabağ heç vaxt müstəqil ölkə olmayacaqdır, Azərbaycanın razılığı olmadan bu, mümkün deyildir. Azərbaycan isə buna heç vaxt öz razılığını verə bilməz. Dağlıq Qarabağda yaşayan ermənilər və orada yaşayacaq azərbaycanlılar muxtariyyət statusu çərçivəsində yaşamalıdırlar və bu sahədə dünyanın ən qabaqcıl təcrübəsi tətbiq edilməlidir. Bizim prinsipial mövqeyimiz bundan ibarətdir və biz bu mövqedən bir addım geri atmayacağıq. Çalışacağıq bütün imkanları – həm siyasi, həm iqtisadi, həm diplomatik, həm başqa imkanları işə salaraq, bu məsələni tezliklə, ədalətli, beynəlxalq hüquq normalarına uyğun şəkildə həll edək ki, Azərbaycan vətəndaşları öz doğma torpaqlarına tezliklə qayıda bilsinlər.

Amma bununla bərabər, Azərbaycan öz hərbi potensialını da gücləndirir. Bu bizim suveren hüququmuzdur və biz bu hüquqdan istifadə edirik. Nəzərə alaq ki, Azərbaycan ordu quruculuğu prosesini daxili imkanları hesabına aparır. Təbii ki, bu bizim daxili işimizdir. Azərbaycan Ordusu son illər ərzində böyük və uğurlu yol keçmişdir. Bu gün ordumuz qarşıda duran bütün vəzifələri icra etməyə qadirdir. Torpaqları işğaldan azad etmək üçün bütün imkanlarımız vardır. Həm döyüş qabiliyyəti, həm vətənpərvərlik ruhu, həm silah-sursat baxımından imkanlarımız genişlənir. Azərbaycanda müdafiə sənayesi artıq dörd ildir ki, fəaliyyət göstərir və bu istiqamətdə böyük uğurlar əldə etmişik. Bizim hərbi potensialımız gündən-günə artır və artacaqdır. 2010-cu ildə bu məqsədləri təmin etmək üçün əlavə böyük vəsait nəzərdə tutulur. Biz Dağlıq Qarabağ məsələsini, Ermənistan-Azərbaycan münaqişəsini həll etmək üçün bütün imkanlardan istifadə edə bilərik.

2011-ci il. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli bizim üçün ən başlıca vəzifədir, ən böyük problemdir. Biz çalışırıq ki, məsələni sülh yolu ilə, danışıqlar yolu ilə həll edək. Azərbaycan öz tərəfindən bütün səyləri göstərir ki, bu məsələ tezliklə həll olunsun. Beynəlxalq birlik tərəfindən tanınmış ərazi bütövlüyümüz bərpa olunsun. Bizim ərazi bütövlüyümüzün bərpası mütləq baş verməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə barışmayacaq, heç vaxt bizim əzəli torpağımız olan Dağlıq Qarabağda ikinci erməni dövlətinin yaradılmasına icazə verməyəcəkdir. Biz hamımız yaxşı bilirik ki, bugünkü Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaradılıbdır. İrəvan xanlığı, Zəngəzur mahalı, digər bölgələr bizim tarixi torpaqlarımızdır. İkinci erməni dövlətinin Azərbaycan torpağında yaradılmasına Azərbaycan dövləti və Azərbaycan xalqı heç vaxt icazə verməyəcəkdir. Bu münaqişə yalnız beynəlxalq hüquq normaları əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır.

2012-ci il. Biz diplomatik və siyasi səylərimizi davam etdirəcəyik. Danışıqlarda bizim prinsipial mövqeyimiz vardır. Biz bu mövqedən bir addım geri çəkilməyəcəyik. Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır. Beynəlxalq birlik, Birləşmiş Millətlər Təşkilatı Azərbaycanın ərazi bütövlüyünü tanıyır, dəstəkləyir. Dağlıq Qarabağ beynəlxalq birlik tərəfindən Azərbaycanın ərazisi kimi tanınır. Münaqişə məhz bu prinsiplər üzərində öz həllini tapmalıdır. Ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. İşğalçı qüvvələr işğal edilmiş bütün torpaqlardan çıxarılmalıdır. Azərbaycan vətəndaşları işğal edilmiş bütün torpaqlara, o cümlədən Dağlıq Qarabağa, Şuşaya qayıtmalıdırlar. Ancaq ondan sonra uzunmüddətli sülh təmin edilə bilər. Biz heç vaxt imkan verə bilmərik ki, ikinci dəfə əzəli Azərbaycan torpağında ikinci qondarma erməni dövləti yaradılsın. Bu bizim prinsipial mövqeyimizdir. Bir daha demək istəyirəm ki, bu mövqe həm tarixə, həm hüquq normalarına, həm də ədalətə əsaslanır.

2013-cü il. Biz ordumuzu 2013-cü ildə daha da gücləndirəcəyik. Ordumuza xərclənən vəsait Ermənistan büdcəsindən 50 faiz çoxdur və bundan sonra da bu istiqamətdə məqsədyönlü, hərtərəfli siyasət aparılacaqdır ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi tezliklə öz həllini tapsın, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etsin.

2014-cü il. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Başqa variant ola bilməz. Azərbaycan heç vaxt imkan verməyəcək ki, bizim torpağımızda ikinci süni erməni dövləti yaradılsın. Əminəm ki, ölkəmizin ərazi bütövlüyü bərpa ediləcəkdir və işğal edilmiş bütün torpaqlarda Azərbaycan vətəndaşları yaşayacaqlar. Gələcəkdə isə azərbaycanlılar bütün tarixi torpaqlara qayıdacaqlar. Mən buna əminəm, buna şübhə etmirəm. Buna nail olmaq üçün biz daha da güclü olmalıyıq, daha da güclü orduya malik olmalıyıq və iqtisadi inkişafı təmin etməliyik.

2015-ci il. Gələn il ordu quruculuğuna, ordumuzun inkişafına 5 milyard dollara yaxın vəsait ayrılacaq ki, bu da yoxsul, dilənçi Ermənistanın ümumi büdcəsindən iki dəfədən çoxdur.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi yalnız beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapa bilər. BMT Təhlükəsizlik Şurasının qətnamələri icra edilməlidir. İşğalçı qüvvələr Azərbaycanın işğal edilmiş torpaqlarından çıxarılmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Bu, əsas prinsiplərdir. Biz bu prinsiplər əsasında istənilən müqavilənin imzalanmasına hazırıq.

2016-cı il. Xarici siyasətimizin əsas prioriteti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Əfsuslar olsun ki, 2015-ci ildə bu istiqamətdə heç bir irəliləyiş olmamışdır. Bunun da səbəbi xalq üçün aydındır. Ermənistan sülh istəmir. Münaqişəni uzatmaq istəyirlər, vaxt udmaq istəyirlər. Danışıqlarda özlərini qeyri-səmimi aparırlar və müxtəlif bəhanələrlə çalışırlar ki, bu danışıqlar prosesi daim davam etsin.

Bizim siyasətimiz bundan ibarətdir ki, bu münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. İşğalçılar işğal edilmiş bütün torpaqlardan çıxarılmalıdır və Azərbaycan vətəndaşları doğma torpaqlara qayıtmalıdırlar.

2017-ci il. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli xarici siyasətimizin əsas prioritetidir. Deyə bilərəm ki, bizim siyasi və diplomatik mövqelərimiz il ərzində daha da möhkəmlənmişdir. Qondarma "Dağlıq Qarabağ" qurumunu heç bir ölkə tanımır və tanımayacaq. Münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bunun başqa yolu yoxdur. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi icra edilməlidir. Status-kvonun qəbuledilməzliyi haqqında artıq həm bu məsələ ilə bağlı fəaliyyət göstərən həmsədr ölkələrin prezidentləri, eyni zamanda ATƏT və digər qurumların rəhbərləri dəfələrlə bəyanatlar vermişdir.

2018-ci il. Aprel qələbəmizdən sonra Ağdərə, Cəbrayıl, Füzuli rayonlarında vaxtilə işğal altında olmuş torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Gün gələcək bizim bayrağımız bu gün hələ də işğal altında olan bütün torpaqlarda, o cümlədən Şuşada dalğalanacaqdır. Bunu deməyə əsas verən Azərbaycan xalqının əyilməz iradəsidir, Azərbaycan rəhbərliyinin siyasətidir.

Bu il Cocuq Mərcanlı kəndinə uzun fasilədən sonra həyat qayıtdı. Cocuq Mərcanlının inkişafı bizim əyilməz ruhumuzun rəmzidir. Uzun illər o kəndin sakinləri başqa yerlərdə yaşamışlar. Ancaq Azərbaycan dövləti orada qəsəbə saldıqdan sonra onlar öz doğma torpağına qayıtmışlar. Cocuq Mərcanlının bərpası bizim qürur mənbəyimizdir. Bu gün orada 150 evdən ibarət gözəl qəsəbə salınıb, məktəb, tibb məntəqəsi, uşaq bağçası və Şuşa məscidinin – vəhşi qonşular tərəfindən dağıdılmış Şuşa məscidinin bənzəri olan məscid tikilib.

2019-cu il. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli işində biz prinsipial mövqeyimizdə qalırıq. Bizim mövqeyimiz haqq-ədalət mövqeyidir. Bizim mövqeyimiz beynəlxalq hüququn norma və prinsiplərinə tam uyğundur. Dağlıq Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Bütün dünya ölkəmizin ərazi bütövlüyünü tanıyır. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır.



BMT Təhlükəsizlik Şurasının qətnamələri tam icra edilməlidir, işğalçı qüvvələr qeyd-şərtsiz bizim torpaqlarımızdan çıxarılmalıdır.

2020-ci il. İl ərzində münaqişə ilə bağlı Ermənistandan çox ziddiyyətli, bir-birini təkzib edən və cəfəng bəyanatlar səslənirdi. Gah deyirdilər ki, qondarma "Dağlıq Qarabağ respublikası" müstəqil dövlətdir və Azərbaycan bu dırnaqarası müstəqil dövlətlə danışıqlar aparmalıdır. Bu, yalandır, Dağlıq Qarabağ müstəqil dövlət deyil, heç bir ölkə bu qanunsuz qurumu tanımayıb, o cümlədən Ermənistan da tanımayıb və bu il ərzində danışıqlar prosesi Ermənistan və Azərbaycan arasında aparılmışdır. Beləliklə, bu cəfəng tezis tamamilə darmadağın edilmişdir. Gah deyirdilər ki, Dağlıq Qarabağ Ermənistandır və nöqtə. Belə populist bəyanatlar verməl olar, amma bu populist bəyanatların arxasında dayanmaq mümkün deyil. Bu da yalandır, Dağlıq Qarabağ Ermənistan deyil, bütün dünya bilir və mən bunu bir daha bəyan etmişəm ki, Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi.

## Nida işarəsinin yetişdirdiyi məqam

Bəli, elə bu nida işarəsi ilə də ölkəmizin Prezidenti xalqımızın 30 illik həsrətinə son qoydu. Çünki artıq məqam yetişmişdi. Dövlət başçısının dediyi kimi: "Otuz ilə yaxındır ki, bu qətnamələr kağız üzərində qalır. Otuz ilə yaxındır ki, Minsk qrupu çərçivəsində danışıqlar aparılır və bunun sonunda Ermənistan müntəzəm olaraq hərbi təxribatlar törətməklə danışıqlar prosesini iflic vəziyyətə salıbdır. BMT-dən başqa bütün digər aparıcı beynəlxalq təşkilatlar bizim haqlı mövqeyimizi müdafiə edir. Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisatdır ki, bu gün Azərbaycan bu təsisata sədrlik edir. Onlar münaqişə ilə bağlı ədalətli qətnamə qəbul etmişlər. İslam Əməkdaşlıq Təşkilatı ədalətli qətnamələr qəbul etmişdir. ATƏT-in qərarları, Avropa Parlamentinin qətnamələri bizim mövqeyimizi dəstəkləyir. Bizim mövqeyimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır. Biz öz torpağımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?!..."

* * *

Bəzi insanlara elə gəlir ki, Azərbaycan kimi böyük olmayan ölkə hər an müharibə edə, torpaqlarını geri ala bilərdi. Bu, sadəcə məsələyə uşaqcasına yanaşma idi. Həm də bu barədə özlərini ziyalı adlandıranlar belə danışırdı. Hansı ki, ölkənin iqtisadi vəziyyətini yaxşı görürdülər. Tək iqtisadi vəziyyət deyil, müharibəyə başlamaq üçün bir-biri ilə əlaqəli olan neçə-neçə amil öz həllini tapmalı idi. Bu, ya belə olmalı, Zəfərlə bitməli idi, ya da 90-cı illərdəki uğursuzluqla-uduzmaqla.

Bütün bu səbəblərdən də dövlətimizin başçısı özünün də dediyi kimi, nəyi nə vaxt və necə həll edəcəyini böyük siyasi əzmlə bacardı. Çoxlarının çoxsaylı fikirlərinə məhəl vermədən zamanın yetişməsini, ölkənin bu böyük prosesə hazır olmasını gözlədi. Və bu zamanın yetişməsi üçün böyük miqyaslı işlər həyata keçirdi.

*44 gündə dünyanın ən məşhur kütləvi informasiya vasitələrinə 30-dan artıq müsahibə verən dövlətimizin başçısı Qarabağın tarixini, strateji əhəmiyyətini, əhalisinin vəziyyətini, 30 illik işğal dövrünü, həmçinin Qarabağla bağlı susan beynəlxalq təşkilatların mahiyyətini tarixi reallıqlarla dünyaya çatdırdı.*

## 44 gün: müharibə, müsahibə, müraciət

Həmin zamansa 2020-ci ilin 27 sentyabrında yetişdi və 44 gün davam etdi. Cəbhədə yeni Azərbaycan tarixi yazılarkən cənab Prezident həmin tarixə bu sözləri yazdı: müharibə, müsahibə, müraciət. Ölkəmizin başçısı ordumuza Ali Baş Komandanlıq etməklə yanaşı, həm də dünyanın bizə qarşı yönəlmiş informasiya müharibəsinin qəhrəmanı oldu 44 günün hər anında. 44 gündə dünyanın ən məşhur kütləvi informasiya vasitələrinə 30-dan artıq müsahibə verən dövlətimizin başçısı Qarabağın tarixini, strateji əhəmiyyətini, əhalisinin vəziyyətini, 30 illik işğal dövrünü, həmçinin Qarabağla bağlı susan beynəlxalq təşkilatların mahiyyətini tarixi reallıqlarla dünyaya çatdırdı. Özünəməxsus nitqi, səbri, haqsız, ədalətsiz suallara hər dəfə eyni təmkinlə cavab verməsi, müxtəlif dillərdə sərbəst, qüsursuz danışıq qabiliyyəti ilə dünya siyasətçilərini və jurnalistlərini heyrətləndirən cənab İlham Əliyev bütün bunların fonunda Azərbaycanın necə bir dövlət olduğunu təsdiqləməklə yanaşı, Ulu Öndərin layiqli övladı olduğunu da sərgilədi.

Xalqına dəfələrlə müraciət etməsi ölkəmizin rəhbərini xoş xəbər müjdəçisi etdi insanların gözündə. 44 gündə torpaqlarımızın azad olunması ilə bağlı xəbərləri tək Ali Baş Komandandan almağımız bizim bir yumruq olduğumuzun, dövlət başçısının ətrafında sıx birləşdiyimizin sübutu oldu. Azərbaycanda belə bir misal var: o yerdə ki, ağsaqqal var, orada Allah var.

***

Ölkəmizdə 43 gün davam edən müharibənin 44-cü günü qələbə bəxş etdi millətimizə. Şiddətli döyüşlər getdi Qarabağ torpaqlarında. Şəhidlər verdik, ürəyimiz parçalandı, qazilərimiz oldu. Lakin bir-birinin ardınca torpaqlarımızı erməni nankorlarından geri aldıq. Füzulimiz, Zəngilanımız, Cəbrayılımız, Qubadlımız, Şuşamız, Ağdamımız, Kəlbəcərimiz, Laçınımız erməni tapdağından xilas edildi, hüriyyətinə qovuşdu. Azərbaycan Milli Ordusu Ali Baş Komandanımızın rəhbərliyi ilə dünyanı heyrətə gətirən döyüş taktikası həyata keçirdi.

## Zəfərin fonunda ötən 20 il

İkinci Vətən müharibəsi əldə edilən Zəfərin fonunda bir çox məqamları təsdiq etdi. Nəzər salaq:

– Ən birincisi, ata vəsiyyətini qeyd etmək istəyirəm. Cənab Prezidentimizin Ulu Öndərin "Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir" vəsiyyətini həm bir övlad, həm də siyasi rəhbər olaraq reallaşdırması xalqımıza liderlik bacarığını göstərməklə yanaşı, həm də qədim ailə dəyərlərimizin qorunub yaşadılmasının əhəmiyyətli olduğunu aşıladı. Bu, hər bir gəncə nümunə gücündə olan təsirli məqamdır.

– Ölkəmizin Prezidentinin fəaliyyəti dövründə hər il bütün bayramlarda xalqımıza müraciətlərində Qarabağdan söhbət açıb, onun bir gün geri qaytarılacağını əminliklə söylədiyinin şahidi olmuşuq. Eləcə də beynəlxalq təşkilatların kürsülərində, xarici qonaqlarla görüşlərində eyni fikirləri hər dəfə səslənib. Bütün bunlar isə Prezidentin ötən illərdə söylədiyi sözlərin arxasında həm də bu sözlər dəyərində ordu quruculuğu prosesini uğurla həyata keçirdiyini, Ali Baş Komandanımızın sözlə əməl vəhdətini təsdiqlədi.

– Cənab Prezidentdə Azərbaycançılıqdan irəli gələn bir xarakteri də açıqca gördük. O, hər kəs kimi müharibə istəmirdi, qan tökülməsini, övlad itkisini istəmirdi. Bunu dəfələrlə Ermənistan siyasi rəhbərinə müraciətində gördük. "Torpaqlarımızdan çıxın, müharibəni dayandıraq", – dedi. Ermənilər bu mənəvi dəyərin nə olduğunu bilməsələr də, bu təkliflər onlara dəfələrlə edildi.

– II Vətən müharibəsi cənab İlham Əliyevin sayəsində bizim özümüzü tanımağımıza vəsilə oldu. Biz gördük ki, azərbaycanlılar nə qədər həmrəy, bir yumruq kimi birləşə bilən, eyni zamanda çox vətənpərvər bir xalqdır. Vətəninə, torpağına, bayrağına sevdalıdır.

– Müharibə xalqın rəhbərinə inamını da nümayiş etdirdi. Tərtərdə, Bərdədə, Gəncədə evləri dağıdılan yüzlərlə insan Prezidentə arxalandığını bildirdi. Evlərinin dağılmasına, həyatlarının təhlükədə qalmasına baxmayaraq yurdlarını tərk etmədilər, qələbə əzmi ilə yaşadılar. Bu, rəhbərə inam, Onun arxasında olmaq deməkdir. Onlar bir də buna əmin idilər ki, evləri, həyətləri əvvəlkindən də gözəl vəziyyətdə onlara qaytarılacaqdı. Çünki onlar cənab Prezidentin verdiyi sözə əməl etdiyinin dəfələrlə şahidi olan insanlardı.

– Qarabağ müharibəsi onu təsdiq etdi ki, xalq-dövlət birliyindən güclü qüvvə ola bilməz. Elə bu qüvvə də qələbəmizin səbəbkarı oldu. Və bu birliyi heç də hər kəs yarada bilməz.

– Və son olaraq, Prezidentimizin illər öncə dediyi bu fikirlərini təsdiqlədi: "Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm. Mənim borcumdur ki, imkan daxilində hər bir vətəndaş inkişafa, yaxşılığa doğru irəliləyişi görsün və onu hiss etsin".

Ötən 20 ilin uğurları, xüsusilə də tariximizin şanlı səhifəsini təşkil edən Qarabağ Zəfəri Prezidentimizin praqmatik fəaliyyətinin nəticələridir. O nəticələr ki, bu gün bütün dünyanın diqqətini özünə yönəldən məqamlardır. Azərbaycanın güclü, eyni zamanda sülhsevər dövlət olduğuna dünyanın şahidliyidir. Ən əsası isə Azərbaycan vətəndaşının qürur yeridir. Bunu zaman sübut etdi.

**_Mətanət Məmmədova_**

# Erməni baş nazir tərəfindən NÖVBƏTİ MANİPULYASİYA

*Bütün çıxışlarını və müsahibələrini yalanlar, uydurmalar üzərində quran Ermənistanın baş naziri Nikol Paşinyan öz ənənəsinə sadiq qalaraq, yenə də manipulyasiyalar etməkdədir. Yalanı utanmadan, çəkinmədən danışmaq "məharəti" Vovayeviçi fərqləndirən ən aşkar xüsusiyyətdir və onun hər zaman olduğu kimi, yenə də öz yalanları, uydurmaları ilə hansısa auditoriyaya hesablanan manipulyasiyaları onun nə dərəcədə avantürist olması barədə çox aydın bir təsəvvür yaradır.*




Təhlil

Ermənistanın İctimai Televiziyasına növbəti müsahibəsində Paşinyan yalandan elə uydurmalar səsləndirib, elə çıxış edib ki, guya Qranadada dağı dağ üstünə qoyub vətəninə qayıdıb. O, utanmadan elə danışıb ki, elə bil İrəvana böyük nailiyyətlərlə geri dönüb və erməni xalqı da bu diplomatik gedişin guya tez bir zamanda bəhrəsini görəcək. Onun uydurmalarına erməni xalqı inanmalı olsa, belə zənn edər ki, guya Ermənistanla Avropa İttifaqı arasında münasibətlərin dərinləşdirilməsində hansısa konsensus var. Əslində isə, nə Nikolun yalanları ayaq tutub yeriyənə oxşamır, nə də bu yalanlara erməni xalqının inanacağına özünün belə ümid edəcəyi inandırıcı görünmür. Çünki erməni baş nazir özü hamıdan yaxşı bilir ki, haylar artıq beş idən çoxdur onun uydurmalarının, yalanlarının dəfələrlə şahidi olublar və pafoslu çıxışlarının da mənasızlığını bilirlər. Onu da bilirlər ki, Paşinyan heç bir platformada diplomatik uğura imza atacaq halda da, məqamda da deyil, üstəlik, bunun üçün onun potensialı da yoxdur.

Jurnalistlə söhbətinin kifayət qədər çox hissəsini Rusiyaya həsr edən erməni baş nazir bu mövzuda da manipulyasiya edib və daxili auditoriyanı aldatmağa çalışıb. O, əmin etməyə çalışıb ki, guya dəyişən heç nə yoxdur. "Biz Ermənistan-Rusiya münasibətlərində heç nəyi ləğv etməmişik, heç bir yerdən geri çəkilməmişik. Biz öhdəliklərimizi yerinə yetirməkdən imtina etməmişik", deyən Paşinyan bir növ Rusiyadan üzr istəyirmiş kimi görünsə də, guya hansısa məcburiyyət qarşısında qaldığı təəssüratı yaratmağa çalışıb. "İndi qlobal mənada çətin dövrdür və problem İrəvanla Moskvanın təmaslarında deyil, qlobal qüvvələr arasında münasibətlərdədir", deməklə faktiki olaraq etiraf edib ki, Qərblə Rusiya arasında qlobal qarşıdurmada diqqətini Qərbə yönəltməyə məcburdur. Ermənistanın öz xarici siyasət vektorunu dəyişmədiyini qeyd edən Paşinyan, əslində, diqqətə çatdırmaq istəyib ki, guya Avropa İttifaqı ilə münasibətlərini belə 2018-ci ildən əvvəl imzalanmış saziş əsasında qurur və davam etdirir. Yəni, Nikol bu məsələdə də manipulyasiya edərək, Qərbə üz tutanların guya onun özündən əvvəlki hakimiyyətin, Qarabağ klanının siyasəti olması barədə Kremlə mesaj ötürmək istəyib və təbii ki, buna nə dərəcədə nail olub-olmaması bəllidir.

Nikol Paşinyan 102-ci hərbi bazanın gələcəyi ilə bağlı jurnalistin sualını cavablandırarkən də hiyləgərlik edib və həmin hərbi bazanın qalacağını bildirməklə, guya Rusiya ilə əlaqədar məsələnin qaldırılmadığı görüntüsü yaratmaq fikrinə düşüb. "Ermənistan Rusiya Federasiyasının 102-ci hərbi bazasının və Rusiya sərhədçilərinin mövcudluğu məsələsini qaldırmır, çünki onların Ermənistan ərazisində olması üçün bütün hüquqi əsaslar toxunulmaz olaraq qalır. Ona görə də nə Ermənistan, nə də Rusiya bu məsələni qaldırmır", deyən Nikol ruslarla guya eyni fikirdə olduğunu ortaya atır. Əslində, məsələ tamamilə fərqlidir və Avropa İttifaqının vəd etdiyi hava təhlükəsizliyi məsələsi ilə eyni vaxtda Rusiya hərbi bazasının mövcudluğu, sözün əsl mənasında, heç də bir araya sığışan deyil. Bunun fonunda Paşinyanın dedikləri onu göstərir ki, erməni baş nazir yenə də hiyləgərlik edir, dedikləri yenə də hansısa auditoriyaya hesablanıb və yenə də avantüradan əl çəkmək niyyətində görünmür.



Bir tərəfdən İrəvanda rusları qıcıqlandıran Roma statusu ratifikasiya olunur, digər tərəfdən də bunun ardınca Ermənistan lideri Rusiya barəsində qeyd olunan şəkildə fikirlərini bildirir. Heç şübhəsiz ki, Rusiya tərəfi bunların fərqindədir və qeyd olunan fərqli məqamlar diqqətdən yayınan deyil. Hər halda görünən odur ki, Nikol ya nə dediyini bilmir, ya da dediklərinin arxasında böyük hiyləgərlik durur. Bəzi politoloqların fikrincə Paşinyan hətta Rusiya prezidentini sanki bu şəkildə ya ələ salır, ya da Kremli qıcıqlandırmaq istəyir ki, Ermənistandan əlini tamamilə üzsün, bu ölkənin taleyini özünə buraxsın və bunun sayəsində də çox asanlıqla Qərbə tərəf yön almaları mümkün olsun.

Əlbəttə ki, Paşinyanın çıxışlarındakı, ifadələrindəki fikrin nədən ibarət olduğu barədə qəti qənaətə gəlmək, niyyətini müəyyən etmək, məqsədini aydınlaşdırmaq çox çətindir. Çünki əvvəla, çalpaşıq, qarışıq və məntiqsiz nitqi onun məğzini müəyyən etməyə imkan vermir, digər tərəfdən isə, əvvəlki fikirləri ilə son fikri tamamilə ziddiyyət təşkil edir, qətiyyən üst-üstə düşmür. "Qranada görüşünün mənfi tərəfi odur ki, bəyanat beştərəfli deyil, dördtərəfli oldu. Azərbaycan niyə Qranadaya yollanıb bəyanatı imzalamadı? Əsas səbəb Fransanın və şəxsən Makronun mövqeyidir. Amma belə bir fərziyyə də var ki, Azərbaycan sülhün baş tutmaması üçün hər şeyi edir, biz bunu yaxın gələcəkdə yoxlaya bilərik", deyən Nikol Paşinyanın bir neçə cümlədən ibarət fikrində belə bir neçə təzadlı, bir-birini təkzib edən fikirlərə rast gəlirik. Belə ki, erməni baş nazir bir tərəfdən Azərbaycanın Qranada görüşündə iştirak etməməsini özləri üçün mənfi tərəf, mənfi hal kimi təqdim edir, digər tərəfdən də bunu istədiyi şəkildə öz xəstə təxəyyülünə uyğun formada izah edir. Bir tərəfdən bunun səbəbini Fransanın və Makronun mövqeyi ilə əlaqədar olduğunu deyir, digər tərəfdən də deyir ki, Azərbaycan sülhün baş tutmaması üçün hər şeyi edir. Maraqlıdır, Nikolun dediyi kimi, əgər Azərbaycan Fransanın, Makronun mövqeyinə görə iştirak etməyibsə, bir tərəfdən də Makron və onun ölkəsi sülhün baş tutmaması üçün, ilk növbədə ermənilərin silahlandırılması olmaqla, sülhə qarşıdırsa, o zaman sülhün baş tutmaması üçün hər şeyi etməkdə rəsmi Bakını günahlandırmaq hansı məntiqə sığışır? Bir sözlə, Azərbaycan məhz sülhə mane olan tərəfin iştirak etdiyinə görə həmin görüşdə iştirak etməyibsə, o zaman sülhün baş tutmaması üçün hər şeyi etməkdə Azərbaycanı günahlandırmaq nəinki məntiqsizlik, axmaqlıq, deyərdik ki, daha bir manipulyasiyadır. Bu tərz ancaq Nikol Paşinyana məxsusdur və həqiqətən də indi onun hansı fikirdə olduğunu təyin etmək çətindir desək, fikrimizi tam ifadə edə bilmərik, çünki öz avantürasına uyğun tərzdə ifadələrdən istifadə edənin əvvəlcə niyyətini bilmək lazım gəlir ki, sonra da fikrinin nədən ibarət olduğu müəyyən edilsin.

Paşinyanın dediklərindən belə çıxır ki, guya Qranadada imzalanmış bir kağız parçası Brüsseldə olacaq danışıqların əsasını təşkil edəcək. Halbuki, daxili audotoriyaya hesablanan bu sözlərlə Nikol yenə də erməni cəmiyyətini aldadır. Əgər erməni cəmiyyəti bunu dərk etməkdə çətinlik çəkirlərsə ki, Azərbaycan liderinin Qranada tədbirində iştirak etməməsi bəyanatı hüquqi qüvvəsindən məhrum edib və birgə qəbul edilmiş sonuncu sənədi, yəni iyulun 15-də Çarlz Mişelin bəyanatını qüvvədə saxlayıb, hər halda həmin o cəmiyyət yaxın zamanda bunu görüb bir də əmin olacaq ki, aldadılmaqdadır. Yəni yaxın zamanda Brüsseldə keçiriləcək danışıqlar vaxtı əsl həqiqət ortaya çıxanda Paşinyanın bu dəfə də manipulyasiya etdiyi ifşa olunacaq.

Nikol bir qədər də həddini aşaraq, "Qranada dördlüyü"nün bəyanatına qoşulmadığına görə rəsmi Bakını tənqid etməyə də cəsarət edib. Makron, Şolz, hətta Mişel kimi hörmətli şəxslərin imzaladığına Azərbaycan liderinin imza atmadığını deməklə, rəsmi Bakını hədəfə almaqla, yenə də manipulyasiya etdiyini və bunun hansısa təsirə malik olduğunu zənn edib. Amma görünür, o dərk etməkdə çətinlik çəkir ki, dedikləri, manipulyasiya zənn etdikləri, maksimum halda erməni seçicisinə təsir edə bilər. Amma bu qədər yalanlarının, uydurmalarının, əsassız və reallaşmayan vədlərinin fonunda çətin ki, erməni cəmiyyəti, Ermənistan ictimaiyyəti belə buna inana, məhəl qoya. Ən azından, haylar bu avantüristin bu vaxta qədərki yalanlarını nəzərə alaraq, dediklərinə şübhə ilə yanaşmalıdırlar, tamamilə inanmasalar belə. Bu isə o deməkdir ki, erməni baş nazirin dediklərinin heç bir mahiyyəti və təsiri yoxdur. Sadəcə, belə qəbul olunur ki, bu, erməni baş nazir tərəfindən növbəti avantüra, növbəti manipulyasiyadır.

Bədnam sənədə münasibət bildirərkən Nikol Paşinyanın ağ yalan danışması isə bir ölkə lideri üçün ləkədir. Görüş zamanı bir sıra digər məsələlərlə yanaşı, Bakının əməllərinin pislənməsi barədə dediklərini manipulyasiya, yaxud avantüra hesab edən Nikol bərk yanılır, çünki bu artıq yalanı öz ölkəsinə sırımaq və öz xalqını, cəmiyyətini aldatmaqla bərabər, heç bir normaya sığışmayan haldır. "Bakı Qranada sənədlərini imzalasaydı, ilin sonunadək sülh sazişinin bağlanma ehtimalı 70%-i ötərdi", deyən Paşinyan öz hiyləgərliyi ilə bəlkə də Ermənistan ictimaiyyətini çaşdıra bilərdi və bunu etməkdə israrlı olduğu da göz önündədir. Amma çətin ki, bundan əvvəlki görüşlər, daha üstün, daha mötəbər platformalarda imzalanan sənədləri xatırlayan hər kəs Paşinyanın dediklərinin nə məna kəsb etdiyini dərhal anlayır və bunun erməni baş nazir tərəfindən növbəti avantüra, növbəti manipulyasiya olduğu qənaətinə gəlir.

Kommunikasiyaların açılması ilə bağlı danışan Nikol Paşinyan bu mövzuda da yalan ifadələr səsləndirib. "Ermənistanda bu, ərazi iddiaları və ekstraterritorial dəhliz tələbi kimi qəbul edilir. Bu məsələ ilə bağlı heç kimə söz verməmişik. Üçtərəfli Bəyanatda belə bir şey yoxdur", deyən Ermənistanın baş naziri yenə də yalan danışıb. Yəni demək istəyib ki, guya Zəngəzur dəhlizinin açılması məsələsi Üçtərəfli Bəyanatda yoxdur, amma bunun yalan olduğu məlum sənədlər vasitəsilə sübut edilə bilər və bunu özü hamıdan yaxşı bilir. Yəni, Paşinyan bu məsələdə də eyni zamanda yalan danışmağı və faktlarla manipulyasiya etmək fikrindədir. Halbuki, Üçtərəfli Bəyanatın 9-cu bəndində deyilir ki, "Regiondakı bütün iqtisadi və nəqliyyat əlaqələri blokdan çıxarılacaq. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətini təşkil etmək məqsədilə Azərbaycan Respublikasının qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat rabitəsinin təhlükəsizliyinə təminat verir". Bunu bilə-bilə, yəni sənəddə nə və necə yazıldığını bilə-bilə "hər kəs açsın oğxusun", demək hər yalançının da işi deyil. Bunun üçün ən azından Paşinyan qədər manipulyator olmalıdır ki, olmayan üzünə üz bağlayıb belə bir ağ yalanı səsləndirə.

**İnam Hacıyev**



# Sosial siyasətdə İlham Əliyev imzası

ANALİZ

**Dövlətin var olmasından sonra qarşıda duran ən vacib məsələlərdən biri də uzunömürlülüyünün təminatı üçün yürüdülən sosial siyasət konsepsiyasıdır. Xüsusilə, müstəqilliyimizi bərpa etdikdən sonra, 90-cı illərin əvvəllərində yaranmış çətin situasiya, qarışıqlıq dövründə xalqın rifah halının yaxşılaşdırılması, yoxsulluğun azalması, işsizliklə mübarizə bu yolda aşılması çətin problemlər idi.**

### Obyektiv idarəetmə və sosial yük

Sovet İttifaqının dağılmasından sonra Azərbaycanın iqtisadiyyatı ciddi böhrana düşdü, təsərrüfat sistemi sıradan çıxdı. Sosialist iqtisadi sistemindən kapitalizmə keçid prosesi təbii olaraq özü ilə çoxsaylı problemlər gətirdi. Zavod-fabriklərin, müxtəlif təyinatlı istehsal və qeyri-istehsal müəssisələrinin fəaliyyətinin dayanması işsizliyin, yoxsulluğun sürətlə artmasına, əhalinin sosial vəziyyətinin pisləşməsinə gətirib çıxardı. Yaranmış vəziyyət təcili tədbirlər görülməsini - iqtisadiyyatda dönüş yaradılmasını, əhalinin sosial vəziyyətinin yaxşılaşmasını tələb edirdi. Lakin 90-cı illərin əvvəllərində respublika hökuməti bu işin öhdəsindən gələ bilmədi. Vəziyyət yalnız 93-cü ilin ortalarından- ümummili lider Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra dəyişməyə başladı. Heydər Əliyevin parlaq zəkası, dövlətçilik təcrübəsi, uzaqgörənliyi ona ölkəmizi idarə etdiyi dövrdə ən obyektiv və optimal qərarlar verməyə imkan yaratdı. Dövlətçilik bacarığı və respublika təsərrüfatını dərindən bilməsi qarşıya qoyulmuş məqsədlərə çatmasında ona kömək oldu.

Ümummilli liderin öz qarşısına qoyduğu ən vacib vəzifələrin sırasına əhalinin sosial müdafiənin gücləndirilməsi, insanların sosial rifahının yaxşılaşdırılması daxil idi. Bunun üçün mütləq qaydada iqtisadiyyatı böhrandan çıxarmaq, gəlirlərin artmasını təmin etmək lazım idi. Yalnız bundan sonra sosial problemləri həll etmək, əhalinin rifahını yüksəltmək olardı. Sosial sferada köklü dəyişikliklər məhz ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra baş verdi. Onun başlatdığı bu siyasəti İlham Əliyev prezident seçildikdən sonra da davam etdirdi.

Artıq 2003-cü ildə Azərbaycan əhalisinin sosial vəziyyəti xeyli yaxşılaşmış, işsizlik və yoxsulluğun əhəmiyyətli dərəcədə azaldılmasına nail olunmuş, xalqın rifahına xidmət edən güclü, davamlı inkişaf edən dövlət sitemi yardılmışdı. Azərbaycan xalqı məhz bu böyük işi qiymətləndirərək 2003-cü ildə ulu öndərin həmin siyasətini davam etdirəcəyinə söz verən varisinə - İlham Əliyevə etimad göstərdi.

### Müzəffər liderin sosial siyasəti

Zaman da sübut etdi ki, xalq öz seçimində yanılmadı. İlham Əliyevin rəhbərliyi dövründə həm iqtisadiyyatımız dünyada ən yüksək templə inkişaf etdi, həm də əhalinin sosial rifahı dəfələrlə gücləndi. Atasının qoyduğu izlə addımlayan İlham Əliyev həm də onun vəsiyyətinə əməl elədi, Azərbaycana misilsiz bir töhfə verdi - xalqın 30 illik həsrətini bitirdi, onları doğma torpaqlarına qaytardı.

Siyasətinin mərkəzində Azərbaycan vətəndaşının dayandığı Prezident İlham Əliyev bu fundamental məsələni belə dəyərləndirir: ”Sosial siyasət həmişə prioritet olub və olacaq. Bütün atılan addımlar bir daha onu göstərir ki, Azərbaycan sosial dövlətdir. Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Azərbaycan vətəndaşının maraqları bizim üçün hər şeydən üstündür. Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi insanların daha da yaxşı yaşamaları məqsədi daşıyır”.

Məlumat üçün qeyd etmək yerinə düşərdi ki, hər il prezidentin imzaladığı fərman və sərəncamların 65 faizi, məhz sosialyönümlü olur. Bunu son 5 ildə - 2018-2022-ci illərdə həyata keçirilən sosial islahatlar, imzalanan fərman və sərəncamlar, davamlı sosial paketlər, eləcə də dövlət başçısının 2023-cü il üçün müəyyənləşdirdiyi sosial dəstək paketi ilə bağlı statistika da təsdiqləyər.

Ümumiyyətlə, vətəndaş rifahının təminatı, əhalinin sosial müdafiəsinin gücləndirilməsi ölkəmizdə aparılan sosial siyasətin ana xəttini təşkil edir. Əhalinin həssas qruplarının, xüsusilə şəhid ailələri və müharibə əlillərinin sosial müdafiəsinin gücləndirilməsi bu siyasətin ön sırasında dayanır. Xüsusilə, I və II Qarabağ Müharibələrində şəhid olan, itkin düşən, yaralanan insanların ailələrinə olan diqqəti qeyd etmək lazımdır.

Təsadüfi deyil ki, yenidən ölkənin Prezidenti seçildikdən sonra dövlət başçısının aprelin 19-da imzaladığı ilk fərman, məhz şəhid ailələri və həmin ailələrə növbəti ciddi dəstək tədbirini nəzərdə tutması ilə əlaqədar oldu. Bu sənədlə, həmçinin 2019-cu ilin yanvarında imzalanan fərmanla yeni mühüm sosial müdafiə proqramı icra edildi, 1997-ci il avqustun 2-dək ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhid olmuş hərbi qulluqçuların, daxili işlər orqanları əməkdaşlarının - 12 min şəhidin vərəsələri 11 min manat məbləğində birdəfəlik ödəmə ilə təmin olundu. Bu, dövlət başçısının həmin kateqoriyadan olan insanlara göstərdiyi diqqət və qayğının nümunəsi idi.

### Sosial siyasətdə idarəetmə bacarığı

Həm müharibə, həm də pandemiya şəraitində olan bir ölkədə, eyni zamanda, sosial rifahı tənzimləmək, ehtiyacları ödəmək ağıllı bir siyasət yürüdülməsini tələb edirdi. Müharibədən çıxmış bir dövlət qlobal pandemiya ilə mübarizəsini hələ də davam etdirirdi. Bu səbəbdən də dövlət büdcəsində sosialyönümlü xərclərin artırılması prioritetliyini saxladı. 2021-ci, 2022-ci və 2023-cü illərin zəfər büdcələrində sosial xərclərin 38,8 faizdən 46 faizdək artırılması bunun əyani təsdiqidir. Təqdirəlayiq haldır ki, cari ilin büdcəsində bu məqsədlərə 15,2 milyard manat vəsait ayrılıb. Bu da 2022-ci illə müqayisədə 1,3 milyard manat çoxdur.

Göründüyü kimi, zəfərdən sonra da hər il dövlət büdcəsində sosialyönümlü xərclər artırılır. 2023-cü ilin büdcəsi də, bu baxımdan, istisna təşkil etmədi və bu ilin büdcəsinin də sosialyönümlü olması bir daha göstərir ki, dövlətin əsas məqsədi xalqın rifahının daim yaxşılaşdırılmasıdır. Xüsusilə, işğaldan azad edilmiş ərazilərdə aparılan sosialyönlü işlər, zavod və fabriklərin inşası, iş yerlərinin açılması həmin ərazilərdə məskunlaşan və gələcəkdə məskunlaşacaq insanlar üçün olduqca əlverişlidir.

***Lalə Mehralı***

# “Heydər Əliyev 100: Mühəndislik hakatonu”

*YAP və ADNSU-nun birgə təşkilatçılığı ilə keçirilən intellektual yarışın açılış mərasimi olub*







***Oktyabrın 14-də Yeni Azərbaycan Partiyasının (YAP) və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin birgə təşkilatçılığı ilə “Heydər Əliyev 100: Mühəndislik hakatonu” intellektual yarışın açılış mərasimi keçirilib.***



Azərbaycan-Fransız Universitetində keçirilən tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Sonra Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Mərasimdə çıxış edən YAP İdarə Heyətinin üzvü, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) rektor əvəzi Vazeh Əskərov Prezident İlham Əliyevin Sərəncamı ilə ölkəmizdə 2023-cü ilin “Heydər Əliyev İli” elan olunduğunu, Ümummilli Liderin anadan olmasının 100 illiyinin respublikamızda böyük təntənə ilə qeyd edildiyini bildirib. Ulu Öndərin gənclərə hərtərəfli qayğısından bəhs edən Vazeh Əskərov qeyd edib ki, Heydər Əliyev siyasətində gənclərlə iş daim xüsusi yer tutub, gənclərin yüksək təhsilə, bilik və bacarıqlara nail olmaları üçün məqsədyönlü addımlar atılıb. Hazırda bu siyasət Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə neft kapitalının insan kapitalına çevrilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir. Bu siyasətin nəticələri gənclərimizin uğurlarında öz əksini tapır.

V.Əskərov gənclərin inkişafında, bilik və bacarıqlarının artırılmasında mühüm rol oynayan belə intellektual yarışların təşkilinin əhəmiyyətini vurğulayıb, yarışda iştirak edən komandalara uğurlar arzulayıb.

YAP Mərkəzi Aparatı rəhbərinin müavini Əhliman Tağıyev anadan olmasının 100-cü ildönümünü qeyd etdiyimiz Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında misilsiz xidmətlərindən bəhs edib. O, Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində son 20 il ərzində Azərbaycanın möhtəşəm nailiyyətlər qazanaraq tərəqqi və Zəfər zirvəsinə yüksəldiyini, qüdrətli və qalib ölkəyə çevrildiyini vurğulayıb.

Ə.Tağıyev bildirib ki, Azərbaycanda Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət gənclər siyasəti də Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Məhz bu siyasətin nəticəsində ölkəmizdə intellektual, vətənpərvər, bilikli və bacarıqlı gənc nəsil formalaşıb. Onun sözlərinə görə, ölkəmizin ən güclü siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasında da böyük gənclər ordusu birləşib. Əhliman Tağıyev ali məktəb tələbələri üçün təşkil edilən intellektual yarışın gənclər üçün faydalı olacağına əminliyini ifadə edib.

Kapital Bankın Proqramlaşdırma üzrə funksional lideri Fariz Lətifov da çıxışında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunan intellektual yarışın gənclərimizin innovativ potensialının inkişafındakı əhəmiyyətindən bəhs edib. Daha sonra yarışın qaydaları və təlimatlar barədə “Eazi Start” startup və innovasiya mərkəzinin koordinatoru Elviz İsmayılov və UFAZ-ın Kompüter Elmləri Proqramı üzrə koordinatoru Samer El Zant məlumat veriblər.

Qeyd edək ki, intellektual yarışda 21 universitetdən 30 komanda təmsil olunub. 120 tələbənin iştirak etdiyi yarışlar 14-15 oktyabr tarixində keçirilib.

# XX əsrin ən böyük lideri

***Mənsub olduğu xalqın tarixi müqəddəratında mühüm rol oynayan şəxsiyyətlərdən biri də Ümummilli Lider Heydər Əliyevdir. Hələ sovet hakimiyyətinin ən güclü olduğu vaxtlarda belə, Heydər Əliyev Azərbaycan xalqının milli mənafelərinin qorunub saxlanılması və inkişaf etdirilməsində mühüm addımlar atmışdır. Buna görə də Heydər Əliyev XX əsr Azərbaycan siyasətinin ən parlaq siması və XXI əsr müstəqillik kursunun memarıdır. Onun həyata keçirdikləri, nəzəri ifadə etdiyi, praktiki diplomatiyaya verdiyi töhfələr hələ uzun illər araşdırma mövzusu olaraq qalacaqdır.***



*Natiq Quluzadə,*
*YAP Zəngilan rayon təşkilatının sədri*

İlk öncə onu qeyd edək ki, 1993-cü ilin yayında Azərbaycan bir dövlət kimi uçurumun astanasında dayanmışdı. Ölkədə baş alıb gedən hərc-mərclik, özbaşınalıq, ermənilərin təcavüzü, orduda vahid komandanlığın olmaması, hakimiyyətdə olanların baş verən hadisələrdən özünü itirməsi kimi problemlər Azərbaycanı bir dövlət kimi məhv olmaq təhlükəsi ilə üzüzə qoymuşdu.

Belə bir vaxtda – 1993-cü ilin iyun ayında Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ilə Naxçıvandan başlanmış qurtuluş mübarizəsi özünün yeni - həlledici mərhələsinə qədəm qoydu, Azərbaycan qurtuluş yoluna qədəm qoydu. Doğma xalqının önündə gedən, bütün məsələlərdə öndərlik edən Heydər Əliyev Azərbaycanı tarixin ən qanlı burulğanından çıxara bildi. Qurtuluş savaşının qalibi olaraq Azərbaycanı bir dövlət kimi məhv olmaqdan xilas edən Heydər Əliyev xalqın xilaskarı kimi mötəbər bir adı qazandı. Azərbaycan xalqı müstəqil dövlət qurmağın zəruriliyini tam olaraq Heydər Əliyevin liderliyi ilə qəbul etdi. Və qısa bir müddətdə cəmiyyət Ulu Öndərin ətrafında birləşdi. Onun bir çağırışı ilə milyonlarla insanlar meydanlara axışmağa başladılar. Bu məqamda isə bütün dünya anladı ki, Azərbaycana təcrübəli, güclü iradəli və uzaqgörən bir lider başçılıq edir. Onu yolundan döndərmək mümkün deyildir.

Sosial-siyasi sabitlik cəmiyyətin siyasi təfəkküründə nizamintizam yaratdı. Ermənistanın Azərbaycana təcavüzünün BMT-də müzakirə edilməsi isə dünyaya bu münaqişənin əsl mahiyyətini anlatmağa geniş imkanlar yaratmış oldu. Ancaq Ulu Öndər bununla kifayətlənmirdi. Heydər Əliyev 1994-cü və 1995-ci illərdə BMT Baş Assambleyasının yüksək tribunasından Azərbaycanda müstəqil dövlət quruculuğunun konseptual parametrlərini dəqiqliklə geniş auditoriyaya çatdırdı və böyük ustalıqla ermənilərin əsl niyyətlərini bütün dünyaya göstərdi.

Milli ideyanın iflasa uğramaq ərəfəsində hakimiyyətə qayıdan bu böyük şəxsiyyət bu prosesin qarşısını nəinki aldı, milli ideyanı konkret ideoloji konseptdə - azərbaycançılıq ideyasında inkişaf etdirdi. Ulu Öndər Heydər Əliyev milli ideyaya XXI əsrin tələblərinə uyğun dövlətçilik şüuru çalarları verməklə sözün həqiqi mənasında inqilabi yenilik edə bildi. Bu baxımdan Heydər Əliyev milli ideyanın həm nəzəri aspektlərini, həm də praktiki reallaşma mexanizmlərini işləyib hazırladı.

Hakimiyyətinin birinci mərhələsində başlatdığı ordu quruculuğu prosesini davam və inkişaf etdirən Heydər Əliyev deyirdi: "Biz Cəmşid Naxçıvanski adına Hərbi Liseyin ilk bünövrə daşlarını qoyanda o bizim üçün nəzəriyyə deyildi, böyük gələcəyə, Azərbaycanın gələcəyinə baxış idi. Azərbaycanın milli zabit kadrlarının hazırlanması üçün ilk uğurlu addımlar idi. Biz bu addımları atarkən düşünürdük ki, zaman gələcək, Azərbaycan xalqı öz milli azadlığına qovuşacaq, öz dövlət müstəqilliyini əldə edəcək, müstəqil Azərbaycan dövləti yaranacaq. Yarandı da. Məhz bugünkü müstəqilliyimizə görə mən bu məktəbi yaratdım, yaşatdım, böyütdüm. Bilirsiniz, sizə səmimi deyirəm, C.Naxçıvanski adına lisey mənim üçün bir övladdır. Ona öz övladım kimi baxıram və nə qədər yaşayıramsa, ona bax, bu cür baxacağam".

Ordu quruculuğu ilə bağlı genişmiqyaslı islahatlara başlandı. Qısa müddətdə hərbi hissələrin, ayrı-ayrı qoşun növlərinin formalaşdırılması tam başa çatdırıldı. Dövlətçiliyi və hərbi andı hər şeydən uca tutan, hərbçi olmağı şərəf bilən zabitlər hərbi hissələrin rəhbərliyinə cəlb olundular. Ordunun mərkəzləşdirilmiş maddi-texniki təminatı əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı, maliyyə-təsərrüfat fəaliyyəti nizama salındı, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı və döyüş ruhu yüksəldildi. Silahlı Qüvvələrin mükəmməl qanunvericilik bazası yaradıldı. Azərbaycan Ordusu qısa müddət ərzində böyük inkişaf yolu keçdi və bölgənin ən güclü qüvvəsinə çevrildi. Azərbaycan Ordusunun gücləndirilməsinin və uğurlu şəkildə təşkilatlanmasının ən başlıca səbəbi, ordu quruculuğuna Heydər Əliyevin rəhbərlik etməsi idi. Azərbaycanın müstəqilliyinə, xalqının milli maraqlarına dərindən bağlı olan Ulu Öndər Heydər Əliyev müstəsna dövlətçilik təcrübəsi, təşkilatçılıq bacarığı, yorulmaz işgüzarlığı ilə ordu quruculuğuna xüsusi bir önəm verdi, bu prosesin siyasətini çox böyük incəlik və dəqiqliklə müəyyənləşdirdi, onun icrasında məqsədyönlü bir çeviklik nümayiş etdirdi.

"Azərbaycanın böyük neft və qaz sərvətlərinə malik olması bizim xalqımızın xoşbəxtliyidir və bu gün, eləcə də gələcəkdə xalqımızın yaxşı yaşaması üçün, ölkəmizin inkişaf etməsi üçün ən əsas amildir". Bu sözlərin müəllifi olan Ümummilli Lider Heydər Əliyev ölkəsinin karbohidrogen ehtiyatlarını strateji xammaldan böyük siyasətin, dünyada gedən inteqrasiya proseslərinin, milli təhlükəsizlik konsepsiyasının faktoruna çevirməyi bacardı. Tarixən ayrı-ayrı dövlətlər, eləcə də bütövlükdə bəşəriyyətə bir çox müsibətlər yaşatmış "qara qızıl" məhz Ulu Öndərin düşünülmüş, müdrik taktiki addımları sayəsində dünyanın transmilli neft korporasiyaları Bakıda toplaşdı. Bir müddət sonra isə Ümummilli Liderin minbir zəhməti sayəsində Bakı-Tbilisi-Ceyhan ixrac boru kəməri reallığa çevrildi ki, bunun da sayəsində bir vaxtlar çoxlarına xəyal kimi görünən "üç dəniz əfsanəsi" gerçəkləşdi. Beləliklə də, Azərbaycan dövləti regionda sülhün dayağına, qədim tarixə malik Bakı şəhəri isə əməkdaşlıq "paytaxtı" na çevrildi və Ümummilli Lider Heydər Əliyev Azərbaycan neftini Azərbaycan xalqının və dövlətçiliyinin prinsipial maraqlarına uyğun işlətmək kimi çətin bir missiyanın öhdəsindən bacarıqla gəldi.

"Təhsil sistemimizin hazırkı vəziyyətini, onun problemlərini dərindən öyrəndikdən sonra prioritet sahələr müəyyən edilməlidir"- deyən Ulu Öndər hələ 70-ci illərdən başlayaraq həyata keçirdiyi təhsil siyasətini yeni mnüstəvidə inkişaf etdirdi və bildirdi ki, "Təhsil sahəsi nə sənayedir, nə kənd təsərrüfatıdır, nə ticarətdir. Bu, cəmiyyətin xüsusi, intellektual cəhətini əks etdirən bir sahədir. Belə halda təhsil sisteminə çox diqqətlə yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır".

1998-ci il martın 30-da Prezidentin Sərəncamı ilə Təhsil Sahəsində İslahatlar üzrə Dövlət Komissiyası yaradıldı, "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" hazırlandı və 1999-cu il iyunun 15-də təsdiq edildi. Proqramda təhsilin gələcək inkişaf strategiyası müəyyənləşdirilməklə, mərhələlər üzrə təhsil sisteminin strukturunda, idarə edilməsində, məzmununda, maddi-texniki bazasında, iqtisadiyyatında, kadr hazırlığı və təminatında əsaslı islahatların aparılması nəzərdə tutulurdu. Bununla yanaşı, Azərbaycan tarixinin, ədəbiyyatının, coğrafiyasının tədrisinə, mükəmməl dərsliklərin hazırlanmasına, Azərbaycan dilinin öyrədilməsinə, xüsusilə dövlət dili statusunda təbliğinə diqqət artırıldı. Əlbəttə ki, Heydər Əliyevin Azərbaycan dili ilə bağlı gördüyü işlər ayrıca bir yazının mövzusudur. Təkcə onu xatırladaq ki, 1978-ci ildə Azərbaycan SSR-in Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsbit edilməsi, o illərdə dörd cildlik "Müasir Azərbaycan dili" dərsliyinə Dövlət Mükafatının verilməsi Heydər Əliyevin cəsarətinin, Azərbaycan dilinə olan sevgi və ehtiramının göstəricisi idi.

Azərbaycan bir çox dünya dövlətləri ilə, Avropa İttifaqı və digər beynəlxalq təşkilatlarla müştərək işlər görərək, tarixi Böyük İpək Yolunun bərpa olunması sahəsində – TRASEKA Proqramının hazırlanması və reallaşdırılmasında yaxından iştirak etmişdir. Bunun Azərbaycan üçün mühüm əhəmiyyət kəsb etdiyini yaxşı bilən Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci ilin 7-8 sentyabr tarixlərində Bakı şəhərində 9 ölkənin (Azərbaycan, Bolqarıstan, Gürcüstan, Qırğızıstan, Moldova, Rumıniya, Türkiyə, Özbəkistan, Ukrayna) dövlət başçılarının, 13 beynəlxalq təşkilat və 32 dövlətin nümayəndə heyətinin iştirakı ilə Tarixi İpək Yolunun bərpasına həsr olunmuş beynəlxalq Konfrans keçirilmiş, Avropa İttifaqının TRASEKA Proqramı əsasında "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas çoxtərəfli Saziş" imzalanmış və Bakı Bəyannaməsi qəbul edilmişdir. Bununla da Azərbaycanın nəqliyyat infrastrukturunda əsaslı inkişaf dövrü başlamaqla bərabər, logistika imkanları görünməz səviyyədə artmış oldu.

Həyatın elə bir sahəsi olmadı ki, Ümummilli Lider Heydər Əliyevin orada izi olmasın, o sahənin inkişafı unudulmuş olsun. Bu gün nə uğurumuz, inkişafımız varsa, hamısının müəllifi Ulu Öndər Heydər Əliyevdir. Qurtuluşdan ötən 30 ilə yaxın dövr ərzində Azərbaycan digər ölkələrin əsrlər boyu keçdikləri tərəqqiyə, intibaha nail olub. Azərbaycan artıq tək Qafqazın lideri deyil, ümumilikdə Avrasiya məkanının aparıcı geosiyasi-geoiqtisadi lideri, qlobal miqyaslı mühüm gücüdür. Ulu Öndərin düzgün strateji yanaşması nəticəsində Azərbaycan beynəlxalq nəqliyyat qovşaqlarının kəsişdiyi vacib "Hab"a çevrilib. Ən müasir avtomobil yolları və infrastrukturun bütün elementləri modern səviyyədə qurulub.

Hazırda Azərbaycan Respublikasında Heydər Əliyevin müstəqil dövlətçilik təlimi, azərbaycançılıq ideologiyası dünyada dəyişən və inkişaf edən reallıqlarla, zənginləşən yeni proseslərlə birlikdə ölkəmizdə yaradıcı şəkildə ardıcıl olaraq həyata keçirilir. Beləliklə, möhkəm bünövrələr, böyük sütunlar üzərində yeni və möhtəşəm Azərbaycan qurulur. Ölkə Prezidenti cənab İlham Əliyevin çoxcəhətli, məqsədyönlü və yorulmaz fəaliyyəti, dövlətçilik işinə çoxaspektli düşünülmüş yanaşmaları, analitik təfəkkürü, müdrik siyasəti, dərin düşüncəsi ilə müstəqil Azərbaycan dövlətçiliyinin yeni epoxası formalaşır.

Qeyd edək ki, 2023-cü il Azərbaycanın tarixində xüsusi yer tutacaqdır. Məhz "Heydər Əliyev İli" elan olunmuş bu ildə Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa edərək bir daha qalib xalq olduğunu sübut etdi. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin uğurla davam etdirdiyi Heydər Əliyev yolu, Heydər Əliyev strategiyası bizi tarixi Qələbəyə qədər gətirib çıxardı və belə qələbələrin çox olacağı da görünməkdədir.

Cild-cild kitablara sığmayan bir ömrü bir məqalədə anlatmaq mümkün deyil. Fikrimizi məşhur qırğız yazıçısı Çingiz Aytmatovun Ulu Öndər haqqında dedikləri ilə bitirək: "Heydər Əliyev həqiqətən də tarixi, hətta əfsanəvi bir şəxsiyyətdir... Heydər Əliyev onun yaşıdlarının və hətta ondan cavan olan bir çox siyasi xadimin bacarmadığı xüsusiyyəti - müasir dövrün ən aktual çağırışlarına hazır olmağı nümayiş etdirə bilmişdir. Məhz Heydər Əliyevin zəngin siyasi təcrübəsinin və humanitar dünyagörüşünün genişliyi nəticəsində indi Azərbaycanda sabitlik, tolerantlıq, mədəniyyət, maarifçilik hökm sürməkdədir. Bütün bunlar isə Azərbaycan dövlətinin müasir inkişafını və tərəqqisini təmin edəcək əsas amillərdir... Heydər Əlirza oğlu XX əsrin ən böyük liderlərindəndir. O, müasir demokratik Avrasiyanın yeni tarixinin bugünkü qurucularından biridir".



# Qalıcı boya və süni dırnaqlar: ÜSTÜ BƏZƏK, ALTI TƏZƏK



*Gözəl və baxımlı görünmək hər bir qadının arzusudur. Lakin bu gözəllik bizim sağlamlığımız bahasına başa gəlməməlidir. Bu gün bir çox qadınlar baxımlı görünmək üçün qalıcı dırnaq boyaları və süni uzun dırnaqlara üz tutur.*

Üstəlik, varlı-kasıb fərq etməz, kimə baxırsan hamının dırnaqları standart olaraq belədir. Bunun üçün hər ay və demək olar ki, hər təbəqədən olan ailədə xüsusi bir büdcə ayrılır. Bəziləri də bunu tənbəllikdən edirlər. Çünki normal dırnaq boyalarından fərqli olaraq qalıcı dırnaq boyaları 1-2-3 ay və hətta daha çox dırnaqda qalır. Bu da qadınların işini asanlaşdırır.

Təsəvvür edin, bu sahəyə o qədər tələbat var ki, hətta əvvəl salonların içərisində bir masa icarəyə götürən dırnaq ustaları artıq bununla kifayətlənmir. Bu da müştərilərin həddindən artıq çox olması ilə əlaqədardır. Bu gün şəhərin bir çox küçələrində sırf dırnaq üçün xüsusi salonlar açılır. Bəs, bu qalıcı dırnaq boyaları və süni dırnaqların insan həyatı üçün hansı zərərləri var?

SİA mövzu ilə bağlı araşdırma aparıb. İlk olaraq qeyd edək ki, çox sadə görünən bu kosmetik tətbiqlər allergiya, göbələk xəstəlikləri və qalıcı dırnaq pozğunluqları ilə yanaşı dəri xərçəngi riskini də artıra bilir.

**Nümunə:**

2019-cu ildə 21 yaşlı ABŞ-lı model Karolina Jasko barmağında kiçik qara ləkə görmüş və bu an onun həyatında dönüş nöqtəsi olmuşdu.. Belə ki, Karolina Jasko barmağındakı ləkənin qaşınma olduğunu düşünərək onu qoparıb. Lakin sonra həyatının ən böyük sarsıntılarından birini yaşayıb.

Karolina Jasko 2018-ci ildə yaşadığı ştatı təmsil edərək, bütün dünyada tanınaraq ölkənin ən gözəl qadını seçilmək üçün yarışmaya qatılıb. Gənc qadın baxım üçün ayda iki-üç dəfə süni dırnaq taxdırıb və bu proses zamanı UV (Ultrabənövşəyi) şüalarına məruz qalıb. Lakin son ana qədər baş verənlərdən xəbərdar olmayıb.

O, əvvəlcə dırnağında qançır görüb, ancaq bunun qaşınma olduğunu düşünüb və onu soyub. Lakin bir həftə sonra həmin barmaq şişməyə başlayıb və gənc model həkimə üz tutub. Dermatoloqa müraciət etdikdən və biopsiyadan sonra Jasko dırnaqlarındakı tünd xəttlərin əslində dəri xərçənginin bir növü olan melanoma olduğunu öyrənib. Melanoma melanositlərdən əmələ gələn dəri xərçəngidir. Ultrabənövşəyi şüalar bu xərçəng növü riskini artıran amillərdəndir. 21 yaşlı Jasko bunun qarşısını almaq üçün şişin yerləşdiyi öz dırnaqlarını bütünlükdə çıxartdırıb. Bu halda o 1 il barmağının həmin hissəsini lentlə örtməyə çalışıb.

Gənc model çətin bir prosesdən sonra xərçəngdən xilas olmaqdan çox xoşbəxt olduğunu bildirib. Karolina Jasko, uzun müddət sonra yaşadığı bu hadisəni onunla eyni vəziyyəti yaşayan insanları məlumatlandırmaq üçün paylaşdığını söyləyib. Jasko bildirib ki, nə olursa olsun, insanlar özləri ilə barışıq olmalı və xəstəliyə heç vaxt təslim olmamalıdırlar.

Araşdırmalar göstərir ki, tibbi baxımdan qaynaq dırnaqlardan istifadənin bəzi şərtləri var. Məsələn, dırnaq batması problemi zamanı dırnağın rahatlamasına imkan verir. Anadangəlmə dırnaq itkisi olan insanlar estetik görünüş üçün də buna üstünlük verə bilərlər. Bundan əlavə, dırnaq yemə vərdişi olan insanlar üçün qaynaq dırnaqların istifadəsi faydalı ola bilər. Ancaq protez dırnaq prosedurunun mütəxəssis tərəfindən aparıldığına əmin olmalısınız. Çünki gigiyenik şərtlərin yerinə yetirilmədiyi və ya bacarıqsız insanlar tərəfindən edilən müdaxilələr dərinin və dırnaq quruluşunun qalıcı şəkildə pozulmasına səbəb ola bilər.

### Dırnaqların nəfəs almasına mane olur

Qaynaq dırnaqlar və qalıcı dırnaq boyaları uzun müddət dırnaqda qalır. Təəssüf ki, zaman keçdikcə bu səbəbdən dırnaqlar nəfəs ala bilmir. Xüsusilə çatlamış, qırılan və incəlmiş dırnaqlara tətbiq edilən bu tətbiqlər zamanla dırnağın incəlməsinə, deformasiyaya uğramasına



və sıradan çıxmasına səbəb olur. Üstəlik, bu göbələk xəstəliyinə də səbəb olur. Xüsusilə məhsulların istehsalında istifadə edilən kimyəvi maddələr dırnaqlarınıza ciddi zərər verə və göbələk infeksiyasının inkişafı üçün uyğun şərait yarada bilər.

### Allergik reaksiyalardan ehtiyatlı olun

Bildiyiniz kimi, akril dırnaqlar hazırlanarkən tərkibində müəyyən kimyəvi maddələr olan yapışdırıcılardan da istifadə olunur. Bəzi insanlar akril dırnağın özünə və ya yapışdırıcılarına qarşı allergik olur. Nəticədə, dırnaq deformasiyası və dırnağın yatağından ayrılması kimi problemlər yaranır. Bu səbəblə həssas dərisi olan insanlar proseduru edərkən çox diqqətli olmalıdırlar.

Son zamanlarda bir çox mütəxəssis ultrabənövşəyi işığın (UV) zərərlərinə diqqət çəkir. Bu xüsusilə də daimi dırnaq boyası tətbiqində istifadə olunur. UV şüaları yayan və qalıcı dırnaq boyasını düzəltmək üçün istifadə edilən lampalar, daimi məruz qalma ilə həyatımıza çox ciddi bir xəstəliyi dəvət edə bilər. Bunun ən əhəmiyyətli səbəbi, dırnaq yatağımızın ultrabənövşəyi şüalara məruz qalması üçün nəzərdə tutulmayan bir sahə olmasıdır. Bu cür tətbiqlərin hər mərhələsində dırnaqlarımız təxminən bir dəqiqə ultrabənövşəyi şüalara məruz qalır. Bu qədər ultrabənövşəyi şüa alan bölgənin gələcəkdə dırnaq yatağı xərçənglərinin artmasına səbəb ola biləcəyi ifadə edilir. Xüsusilə qeyd olunur ki, ildə bir neçə dəfə edilən tətbiqlər deyil, 3-4 həftədən bir nizamlı olaraq həyata keçirilən tətbiqlər bu riskin artmasına səbəb ola bilər. Məsləhət olunur ki, prosedur zamanı dırnaq sahəsinin ətrafına bol günəş kremi istifadə edəsiniz.

**Digər nümunələr:**

22 yaşlı gənc qız bildirir ki, qalıcı boya və süni uzun dırnaqları yalnız toydan-toya filan etdirir. O, prosesə səbrinin çatmadığını və bunun dırnaqlarına zərər verdiyini söyləyir: "Bir dəfə dırnağımı gellak, şellak, yaxud qaynaq etdirirəmsə, 3-4 ay onun cəzasını çəkirəm. Prosedurun müddəti tamamlandıqdan sonra dırnaqlarım nəfəs alsın deyə onları sökdürürəm. Bu halda da dırnaqlarım öz-özünə başlayır soyulmağa, qırılmağa və çatlamağa. Bərpa olması üçün də uzun zaman sərf edilir".

42 yaşlı bir qadın isə bildirir ki, müəllimə olduğu və hər gün işə yollandığı üçün dırnaqları daim baxımlı olmalıdır: "İki həftədən bir dırnaqlarımı qaynaq etdirirəm. Buna səbəb dırnaq dibinin tez uzanmağı və eyni dizayndan mənim tez sıxılmağımdır. Lakin təəssüf ki, bu dırnaqlarımda ciddi fəsadlara səbəb olub. Belə ki, dırnağım sanki ət kimi olub çox həssasdır, üzərinə ehmalca toxunduqda belə incinir. Bunlar hamısı etdirdiyim qaynaqların fəsadlarıdır. Halbuki, 50 manatlıq yerdə etdirirəm. Yenə də belə olur".

İngilis dermatoloq Deirdre Buckley bu yaxınlarda BBC-nin "Bu gün" proqramının qonağı olaraq bildirdi ki, bu gel dırnaq boyası tendensiyası dırnaqların boşalmasından tutmuş düşməyə kimi bəzi dəyişikliklərə səbəb ola bilər. O, bunun üz, boyun və döş qəfəsinin yuxarı hissəsində şiddətli səpgilərə, barmaqlarda yaralara və ya şişməyə səbəb ola biləcəyini söyləyib: "Dırnaqlarınızı qolunuza və ya üzünüzə toxundurmaq belə simptomların bu nahiyələrə yayılmasına səbəb ola bilər. Nəfəs almaqda çətinlik yarana və astma tutmaları baş verə bilər. Daha da pisi odur ki, orqanizm akrilatlara qarşı həssas ola bilər ki, bu da stomatologiyada, diabetik və ya ortopedik cərrahiyyədə istifadə edilən bəzi prosedurlara ömürlük həssaslığa səbəb ola bilər".

Həkim əlavə etdi ki, allergiyası olan insanlar bu kimyəvi maddələrdən istifadə edərək tibbi prosedurlardan keçə bilməzlər. Gel və ya akril dırnaq taxaraq həssaslaşan xəstələrdə inkişaf edən allergiyanın diş müalicəsi sonrası üz şişməsinə səbəb ola biləcəyini söyləyən həkim, insanların istər salonda, istərsə də evdə tətbiq olunan süni dırnaq məhsullarının potensial risklərindən xəbərdar olmasının vacibliyini vurğuladı.

Gel dırnaqların sağlam və təhlükəsiz şəkildə tətbiqi üçün keyfiyyətli materiallardan istifadənin və prosesin peşəkar şəkildə həyata keçirilməsinin vacib olduğunu sözlərinə əlavə edən həkim, dırnaqların mütəmadi olaraq dincəlməsi və təbii şəkildə sağalmasına icazə verilməsinin lazım olduğunu bildirdi.

Əziz xanımlar, unutmayın ki, tənbəlliyin daşını ataraq evdə özünüz də səliqəli və baxımlı dırnaqlara sahib ola bilərsiniz. Bunun üçün heç də özünüzü riskə atıb hər 15 gün, yaxud bir aydan bir gözəllik salonuna getməyə ehtiyac yoxdur. Məsələn, uzun dırnaq sevən qadınlar süni uzun dırnaq əvəzinə dırnağın qırılmadan uzanması üçün dırnaq gücləndirici müalicəvi rəngiz dırnaq boyası formasında maddələrdən istifadə edə bilər. Səliqəli qısa dırnaq sevənlər də dırnaq manikuru üçün olan ləvazimatları alıb ev şəraitində dırnaqlarını formaya salıb ideal görünüş əldə edə bilər. Bunun üçün sağlamlığımızı təhlükəyə atmağa ehtiyac yoxdur.

***Ayşən Vəli***


## "Nar"dan yeni abunəçilər üçün xüsusi endirim: FULL 6 yarı qiymətə!




İndi yeni abunəçilər "Nar"-ın ən çox seçilən tariflərindən biri olan FULL 6-nı yarı qiymətə əldə edə bilərlər. Tarifə 1 illik abunə olmaq istəyənlər sadəcə 6 ayın abunə haqqını ödəməklə 50% güzəşt əldə edəcəklər. Həmçinin 3 və 6 aylıq abunə olmaq istəyənlər də endirimdən istifadə edib nəzərdə tutulan xərclərinə müvafiq olaraq 30% və 40% qənaət edəcəklər.

Xüsusi endirimli FULL 6 tarifi abunəçilərə 120 dəqiqə danışıq, 600 MB internet və əlavə olaraq sosial şəbəkələrdə yazışmaq üçün 1GB internet trafiki təklif edir. Tarifə qoşulmaq üçün "Nar"ın satış və xidmət mərkəzlərində yeni nömrə əldə etmək kifayətdir. Endirimli FULL 6 tarifi çərçivəsində təqdim olunan bonusların qalığı da digər bütün FULL tariflərində olduğu kimi yanmır və növbəti aylara keçir. FULL 6 haqqında daha ətraflı: nar.az/full-6/

"Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# Cəmil Həsənli susqunluğu ilə qələbəmizdən pərişan olduğunu nümayiş etdirir

***Oktyabrın 15-də Yenilməz Sərkərdə, Ali Baş Komandan, Prezidentimiz İlham Əliyev tərəfindən Xankəndidə, Ağdərədə, Xocavənddə, Əsgəranda, Xocalıda və separatçılardan təmizlənən digər şəhər və kəndlərimizdə üçrəngli bayrağımız ucaldıldı. Bu şərəfli və qürurverici tarixi anları yaşadığımız bir məqamda bəzi yerli və xarici qüvvələr təxribatçı mövqe sərgiləyir, dünya ictimaiyyətini çaşdırmağa yönələn açıqlamalar verir, sosial şəbəkələrdə statuslar paylaşırlar. Azərbaycan bayrağının Xankəndidə ucaldılmasından məyusluq keçirən Əli Kərimli, Tofiq Yaqublu, Fuad Qəhrəmanlı kimilərin qısqanc və qeyri-obyektiv münasibəti daha qabarıq şəkildə özünü göstərir.***

44 günlük Vətən müharibəsində olduğu kimi, bu gün də qazandığımız Qələbə onları ciddi narahat edir, diqqəti reallıqdan yayındırmağa çalışır, qərəzli fikirlər səsləndirirlər. “Milli Şura”nın sərdi Cəmil Həsənli isə susqunluğu ilə qələbəmizdən pərişan olduğunu nümayiş etdirir. Hətta ehtimal etmək olar ki, C.Həsənli psixoloji sarsıntı keçirdiyindən yataq xəstəsi olub, evində müalicə alır.



### Qısqanclıq, ifrat dərəcədə paxıllıq hissi dağıdıcı müxalifəti lal və kar edib

Necə ola bilər ki, Azərbaycanda fəaliyyət göstərən konstruktiv mövqeli siyasi partiyalar Xankəndidə bayrağımızın ucaldılmasına görə Prezident İlham Əliyevi təbrik edirlər. Eyni zamanda, dost ölkələrin siyasətçiləri, jurnalistləri, ictimai fealları xalqımızı Xankəndi şəhərində bayrağımızın ucaldılması münasibəti ilə gözaydınlığı verirlər C.Həsənli və digərləri susurlar? Hansısa neqativ hadisə baş verən məqamda sosial şəbəkələrdə vay-şüvən quranlar niyə Suqovşanda, həssas yerimiz olan Xocalıda bayrağımızın dalğalandırılmasına görə səslərini çıxarmırlar, ən azı bir-birlərini təbrik etmirlər? Deməli, qısqanclıq, ifrat dərəcədə paxıllıq hissi onları lal və kar edib. Artıq onların danışmağa sözləri, deməyə fikirləri olmayacaq, təbii ki, azda olsa özlərinə hörmət etməyi bacarsalar. Lakin Ə.Kərimlinin, T.Yaqublunun, C.Həsənlinin qara zolaqdan ibarət olan siyasi fəaliyyətləri təsdiq edir ki, onlar özlərinə əsl hörmət edən siyasətçilər deyillər. Əgər doğrudan da özlərinə hörmət etsəydilər C.Həsənli “ Sorosdan hər ay 200 ABŞ dolları aylıq məvacib almışam” , T.Yaqublu utanıb çəkinmədən “Zəngəzur dəhlizi Azərbaycanın avantürasıdır”, Ə.Kərimli “Ermənistan daha cəlbedici və demokratik dövlətdir” deməzdilər. Bu kimi faktlar və mövcud reallıqlar da təsdiq edir ki, onlar özlərini aşağılamaqla maddi rifahlarını düzəlməyə çalışırlar. Yeni əsas hədəfləri milli və dövlətçilik maraqlarını satmaq hesabına maliyyə vəsaiti qazanmaqdır. Məhz buna görə də, xalqın bu günlər yaşadığı böyük çoşquya, sevinc və qürura şərik olmurlar. Əksinə, sosial şəbəkələrdə erməni dəyirmanına su tökən statuslar paylaşırlar. “Sorosun uşaqları” şəbəkəsinin əsas iştirakçılarından olan AXCP sədri Əli Kərimli sosial şəbəkədə paylaşımında yazır: “Bəs Rusiya ”sülhməramlılarının” taleyi necə olacaq? 2025-ci ili gözləməyin heç bir mənası yoxdur. Müzakirə ediləcək məsələ də yoxdur. Qarabağda indi üz-üzə duran silahlı tərəflər, təmas xətti yoxdur ki, ”sülhməramlının” iştirakı üçün də bəhanə olsun. Rusiya ordusunun Qarabağda qalması üçün nəinki səbəb, heç bəhanə də qalmadı. Rusiya ordusu ləngimədən Qarabağdan çıxarılmalıdır. Bəs Zəngəzur dəhlizi necə olacaq? Rusiyanın bizi Ermənistanla müharibəyə qoşmaq şansı hələ də qalırmı? Türkiyə nə deyir bu barədə? Bu məsələdə ən həlledici faktorlar nələrdir? Biz xalq olaraq nələrə imkan verməməliyik?”. Qısası cəfəng, mənasız, yersiz fikirlərlə Ə.Kərimli əslində özün rüsvay etmiş olur. Çünki, bu məxluq elə fikir nümayiş etdir ki, sanki dövlət hansı addım atsa, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan hansı qərarlar versə, mütləq bununla məsləhətləşməlidir.

### Fuad Qəhrəmanlı qızdırmalı xəstə kimi danışır

Diqqətçəkən maraqlı məqam ondan ibarətdir ki, bu bədxah məxluqun ətrafında olanların əksəriyyəti onun özü kimi xəstə təfəkkürə malikdir. Misal kimi Seymur Həzi, Fuad Qəhrəmanlı, Tofiq Yaqublu və digərləri paylaşdıqları statuslarında yazırlar ki, “Zəngəzur dəhlizi nə zaman açılacaq”, “Rus sülhməramlılara nə zaman Qarabağdan çıxacaq”, “Güney Azərbaycana nə vaxt sahib olacağıq” və bu kimi hazırkı mərhələdə müzakirəsinə zərurət olmayan fikirlər səsləndirirlər. AXCP sədr müavini Fuad Qəhrəmanlı sosial şəbəkədə paylaşımında yazır: “Xankəndidə dövlət bayrağımızın dalğalanması bizim üçün qürurvericidir, mühüm hadisədir, ancaq o bayrağın dalğalandığı şəhərdə bu gün rus əsgərləri varsa, o yabançı əsgərləri orada saxlamaq üçün Azərbaycan hakimiyyəti də Moskva ilə bərabər bəhanələr uydurursa, biz buna qarşıyıq və bu hakimiyyətdən fərqli olaraq ərazimizdə rus ordusunu görmək istəmirik.Rus ordusu Xankəndində qaldıqca Rusiyanın imperiya caynaqları yurdumuzun yaxasındadır deməkdir. Ona görə də bu gün Xankəndidə bayrağımızın dalğalanması fonunda Azərbaycanın taleyindəki işğal və parçalanmaların əsas səbəbkarı olan Rusiya imperiyasına sığınan milli ola bilməz.Bizim üçün son rus əsgəri Qarabağı tərk edənə qədər bu problem bitmiş deyil”.

Söz yox ki, rus sülhməramlıları da bölgəni tərk edəcəklər, bu, qaçılmazdır. Görən bundan sonra dağıdıcı müxalifət nə danışacaq, nələri müzakirə edəcəklər? Hakimiyyətə minnətdarlıq edib, Yenilməz Sərkərdə, Prezidentimiz İlham Əliyevdən üzr istəyəcəklərmi? Xalqın sevincli günlərində xalqla bir yerdə olmadıqlarına görə peşman olduqlarını dilə gətirəcəklərmi? Yenə də yuxarıda qeyd etdiyim fikirləri qeyd edirəm: Əli Kərimli, Cəmil Həsənli, Fuad Qəhrəmanlı, Tofiq Yaqublu və digərləri heç zaman düzəlməzlər, islah olunmaları da mümkünsüzdür. Məğlubiyyətlərini və səhvlərini etiraf etmək mədəniyyətinə də malik deyillər. Ona görə də, rus sülhməramlıları Qarabağı tərk etdikdən sonra daha bir cəfəng, mənasız fikirlərlə dövriyyəyə daxil olacaqlar.

**İ.ƏLİYEV**

# "Sadə vətəndaşlara, qurumlara qarşı bu cür hücumlar törədilə bilər"

***“Onlayn mühitdən istifadə edən şəxs buradakı kiber təhlükəsizlik qaydaları ilə tanış olmalıdır”. Bu sözləri SİA-ya açıqlamasında Mətbuat Şurası İdarə Heyətinin üzvü, media eksperti Müşfiq Ələsgərli deyib. M.Ələsgərli bildirib ki, təhlükəsiz qaydaları ilə tanış olmadan kiber məkana daxil olan şəxslər həm özləri, həm də başqaları üçün müəyyən təhlükələr yarada bilər. Bu baxımdan onlayn mühitdə olan hər bir şəxs ibtidai təhlükəsizlik qaydaları ilə tanış olub, onlara riayət etməlidirlər.***



MEDİA EKSPERTİ







Müşahidələr göstərir ki, kiber məkanda baş verən təhlükəsizlik problemlərinin bir çoxu buradakı istifadə qaydalarının öyrənilməməsindən irəli gəlir. Amma kiber hücumları təşkil edən şəxslər də peşəkar olurlar və hansısa obyektləri xüsusi hədəfə çevirirlər. Bu baxımdan Azərbaycan dövləti kiber təhlükəsizliklə mübarizə aparmaq üçün ixtisaslaşmış qurumlar yaradıblar. Bizim əhali üçün daha çox əlçatan və populyar olanı Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tərkibində olan Elektron Təhlükəsizlik Mərkəzidir. Bu mərkəz kifayət qədər aktiv işləyir. Kiber hücumların çeşidi çoxdur, müxtəlif variantlarda olur. Bu baxımdan sadə vətəndaşlara, qurumlara qarşı da bu cür hücumlar törədilə bilər”.

Ekslert hesab edir ki, istənilən onlayn mühit istifadəçisi kiber təhlükəsizlik qaydaları ilə tanış olmalı, müdafiə qaydalarını öyrənməlidir. İxtisaslaşmış kiber hücumların qarşısının alınması üçün isə müvafiq qurumlardan yardımlar alınmalıdır. Hesab edirəm ki, Azərbaycanda media savadlılığının aparılması ilə bağlı böyük bir proqram tərkibində kiber hücumlar və onlardan müdafiə qaydaları ilə bağlı da müəyyən işlər görüləcəkdir”.

***Səbinə Hüseynli***

# Ərzaq təhlükəsi(zliyi): Dünyanı və bizi nə gözləyir?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*



## 16 oktyabr Ümumdünya Qida Günüdür

Müasir dünyanın qarşılaşdığı ən böyük problemlərdən biri də ərzaq çatışmazlığı və aclıqdır. Təxmini hesablamalara görə, dünya əhalisinin 15 faizi, başqa sözlə 250 milyonu uşaq olmaqla 1 milyarda yaxın insan aclıqdan əziyyət çəkir. Dünyada hər il 50 000 insan kəskin aclıq nəticəsində ölür. Problem ərzaq çatışmazlığı ilə əlaqələndirilsə də, bir çox ekspertlər qeyd edirlər ki, problem ədalətsiz bölgüdə və israfçılıqdadır, çünki hazırkı ərzaq istehsalı təxminən 15 milyard insana yetəcək həddədir. Hesablamalara görə, təkcə Amerika və Britaniyada zibilliyə atılan qidalarla 1 milyarda yaxın adamı doydurmaq olar. BMT-nin alimlər qrupunun hesabatında qeyd olunur ki, təbii ehtiyatlardan səmərəli istifadə olunacağı halda Yer kürəsi 50-60 milyard insanı yedirdə bilər.

## Ərzaq təhlükəsizliyi dünyanın 1 nömrəli probleminə çevrilib

Müasir dövrdə ərzaq təhlükəsizliyinin və qida təhlükəsizliyinin təmin edilməsi hər bir dövlət üçün çox strateji xarakter daşıyır. Çünki ərzaq təhlükəsizliyi ölkənin siyasi və iqtisadi təhlükəsizliyinin ən mühüm tərkib hissələrindən olub dövlətin strateji maraqlarının qorunmasında böyük əhəmiyyətə malikdir. Nəzərə alsaq ki, dünya yeni ərzaq böhranı dövrünə qədəm qoymaqdadır və bir sıra ölkələr bundan ciddi zərər çəkməkdədir, o zaman bu məsələnin nə qədər vacib olduğu göz qarşısına gəlir. Qida təhlükəsizliyi isə əhalinin sağlam və təbii qidalarla təminatını özündə ehtiva edir və bu, ən azı ərzaq təhükəsizliyi qədər vacib sahədir.

Hazırda qlobal ərzaq qıtlığı problemi ən çox aqrar sektorun "unudulduğu" ölkələri hədələməkdədir. Çox sevindirici haldır ki, Azərbaycan bu ölkələr sırasında deyil. Əksinə, ölkəmizdə aqrar sektor ən sürətlə inkişaf edən sahəyə çevrilib. Baxmayaraq ki, hələ də aqrar sahə istənilən inkişaf səviyyəsinə çatmayıb, bununla belə artıq aqrar sektorumuz ərzaq təhlükəsizliyi ilə bağlı təhdidlərə cavab verəcək həddədək inkişaf edib. Lakin ölkəmizin ərzaq istehsalı potensialı hazırkı həcmdən dəfələrlə çoxdur. 2-ci əsrin 2-ci yarısının göstəricilərinə baxmaq bunu görmək üçün kifayət edir.

Hazırda respublikamız həmin istehsal həcmlərindən dəfələrlə aşağı göstəricilərə malik olsa da, ərzaq istehsalı sektorumuz həmin həcmlərə qayıtmaq imkanını saxlayır. Üstəlik, indi daha innovativ texnologiyalar tətbiq etmək mümkündür ki, bu da o vaxtkından daha yüksək məhsuldarlıq əldə etməyə imkan verər.

## Azərbaycanın ərzaq istehsalında böyük sıçrayış necə baş verdi?



Məlum olduğu kimi, Azərbaycan coğrafi yerləşməsi və torpaq-iqlim şəraitinə görə kənd təsərrüfatı üçün çox əlverişli bir ölkədir. XX əsrin birinci yarısında aqrar sektorda böyük inkişaf baş verdi. Müharibədən sonra isə, bu sahədə nəhəng proqramlar həyata keçirildi. Nəticədə, əkinçilik və heyvandarlıqda yüksək nailiyyətlər əldə olundu. 70-ci illərdən başlayaraq kənd təsərrüfatı elmi əsaslarla inkişaf etdi, böyük sənaye potensialı yaradıldı və Azərbaycan İttifaq respublikaları arasında öz mühüm yerini tutdu.

Azərbaycan SSR KP MK-nın avqust (1969-cu il) plenumu iqtisadi inkişafı artırmaq üçün təxirəsalınmaz təşkilati tədbirlər işləyib hazırladı və onları həyata keçirməyə başladı. Kənd təsərrüfatının inkişafina 1971-75-ci illərdə dövlət tərəfindən 1.4 milyarda yaxın vəsait ayrıldı.

Təsərrüfatların maddi-texniki bazası genişləndirildi, istehsal vasitələrilə təminat yaxşılaşdırıldı. Aqrar sahədə yaradılan elmi institutlar, savadlı və bacarıqlı kadrlar işə böyük töhfə verirdi.

Nəticədə, məhsulların xam və emal olunmuş şəkildə istehsalı və ixracı artdı. Kənd təsərrüfatının ümumi məhsulunun dəyəri 1969-cu ildəki 1 milyard manat əvəzinə 1975-ci ildə 1,57 milyard manat (57% artım) oldu. 1969-cu ildəkinə nisbətən 1975-ci ildə kolxozçuların orta aylıq əməkhaqqı 47 faiz, sovxoz işçilərinin orta aylıq əməkhaqqı 38 faiz artdı. Dövlətin kənd təsərrüfatına qayğısı və dəstəyi ilbəil artırıldığından ümumi məhsul istehsalı sürətlə artdı. 80-ci illərin əvvəlində məhsul istehsalı 70-ci ilin orta göstəricilərini 2,5 dəfə ötmüşdü. İstehsal həcmi taxılçılıqda 1,7, tərəvəzçilikdə 2,4, pambıqçılıqda 2,2, tütünçülükdə 2,7, çayçılıqda 3,2, meyvəçilikdə 3,8, üzümçülükdə 8 dəfə artmışdı.

1981-ci ildə rekord nəticələr əldə olundu. 1,15 milyon ton taxıl, 831 min ton pambıq, 1,7 milyon ton üzüm, 850 min ton tərəvəz, 96 min ton bostan bitkiləri, 26 min ton yaşıl çay yarpağı, 147 min ton mal-qara və quş əti, 836 min ton süd, 772 milyon ədəd yumurta və 11 min ton yun tədarük edilmişdi.

Qeyd etmək lazımdır ki, respublikanın bəzi rayonları istehsal göstəricilərinə görə SSRİ-nin ən iri və qabaqcıl rayonları sırasına daxil olmuşdu. Məsələn 1982-ci ildə Bərdə rayonu 125 min ton pambıq, Cəlilabad rayonu 250 min ton üzüm istehsalına görə İttifaqda 1-ci yerə çıxmışdı.

## Tərəqqidən tənəzzülə, tənəzzüldən tərəqqiyə gedən yol

Sovet İtifaqının və sosialist iqtisadi sisteminin dağılmasından sonra, müstəqilliyin ilk illərində respublika iqtisadiyyatı, o cümlədən aqrar sektor demək olar ki, tamamilə sıradan çıxdı.

Respublikada iqtisadi bazanın olmasına baxmayaraq, naşı rəhbərlərin apardığı yanlış siyasət nəticəsində bütün sahələrdə olduğu kimi aqrar bölmədə də tənəzzül sürətlə gedirdi. Nəticədə, 90-cı illərin əvvəllərində respublikada kənd təsərrüfatı məhsullarının istehsalı aşağı düşdü- hətta bir çox əsas ərzaq məhsulları üzrə 2-3 dəfə.

Heydər Əliyevin 2-ci dəfə respublikaya rəhbərliyə başlamasından sonra isə ictimai-siyasi sabitlik əldə olundu və iqtisadiyyatın dirçəldilməsi üçün təcili tədbirlər görüldü. Tezliklə iqtisadi inkişafın strategiyası hazırlandı. 1994-cü ildən başlayaraq dövlət aqrar sektorun fundamental inkişafı üçün stimullaşdırıcı tədbirlər görməyə başladı. Özəlləşdirilmə prosesi həyata keçirildi, torpaqların kəndlilərə paylanmasına başlandı, azad sahibkarlığın inkişafına döstək verildi və s.

İqtisadiyyat, xüsusilə də aqrar sektor "kollaps"dan qısa müddətdə və məharətlə çıxarıldı. Buna baxmayaraq, 2000-ci ilədək ölkə iqtsadiyyatında, xüsusən də, aqrar sektorda çoxsaylı həll edilməmiş problemlər qalırdı.

XXI əsrdə isə sanki bir inkişaf sunamisi baş verdi. Aqrar sahənin inkişafı ilə bağlı respublikada 40-dan çox hüquqi-normativ sənəd qəbul edildi və onların əsasında aparılan islahatların yekunu olaraq 872 min kəndli ailəsinə 1 milyon 373 min hektar torpaq sahəsi, 63 mindən artıq maşın və traktor, 4 min mal-qara tövləsi, 2300 qoyun yatağı, 450 min baş qaramal, 1 milyon 900 başdan artıq davar bölündü.

## Ərzaq təhlükəsizliyi necə təmin edildi?

Prezident Heydər Əliyevin 22 mart 1999-cu il tarixli fərmanı ilə Nazirlər Kabineti kənd təsərrüfatı məhsulu istehsalçılarına dövlət büdcəsi hesabına güzəştli pərakəndə satış qiyməti ilə neft məhsullarının satılması barədə qərar qəbul etdi. Milli Məclis isə, həmin fərmana əsasən, kənd təsərrüfatı məhsulları istehsalçılarının torpaq vergisi istisna olunmaqla digər vergilərdən azad edilməsi barədə qanun qəbul etdi.

Heydər Əliyevin 10 il ərazində həyata keçirdiyi aqrar islahatlar öz nəticəsini verdi. 90-ci illərdə əsas kənd təsərrüfatı məhsullarını xaricdən idxal edən Azərbaycan növbəti onillikdə artıq xaricə məhsul ixrac edirdi. Beləliklə, 1993-2003-cü illərdə aparılan aqrar islahatlar nəticəsində böyük işlər görüldü və hazırki



dinamik inkişafın əsası qoyuldu. Bu siyasətin nəticələri sonralar özünü daha aşkar şəkildə büruzə verdi.

Azərbaycan Prezidenti İlham Əliyevin hakimiyyətə gəlməsindən sonra bu iqtisadi siyasət davam etdirildi. Genişmiqyaslı investisiya proqramları, regionların və aqrar sektorun inkişafı ilə bağlı dövlət proqramları bu inkişafın sürətini xeyli artırdı. Hər il aqrar sektora böyük həcmdə investisiya yatırılır, bu sahədə çalışan fermerlərə və təsərrüfatlara yüz milyonlarla manat məbləğində dotasiyalar, həmçinin güzəştli, uzunmüddətli kreditləri verilir. Məhsul istehsalçılarına müxtəlif güzəştlər verilib, onlar bütün vergilərdən azad edilib.

Nəticələr isə ortadadır. Azərbaycan hazırda daxili istehsal hesabına özünü tərəvəzlə, ət və ət məhsulları, quş əti və yumurta üzrə 90-100%, meyvə və giləmeyvə ilə 80%, bitki yağları, kərə yağı, süd və süd məhsulları və taxılla 60-70% təmin edir.

Respublikamız 85 ölkəyə 30-dan çox adda bitkiçilik mənşəli ərzaq və qida məhsulları ixrac edir. Bu məhsullar xarici bazarda keyfiyyət və qiymətinə görə çox böyük rəqabət qabiliyyətinə malikdir. Əldə olunmuş bütün nailiyyətlərə baxmayaraq, ölkəmiz bir sıra ərzaq məhsullarını xaricdən idxal edir. Bu, əlbəttə, ərzaq təhlükəsizliyi cəhətdən ciddi problemdir.

## Aqrar sektorda daha hansı işlər görülməlidir?

Aydındlır ki, idxal olunan məhsullar sahəsində ölkə daxilində ərzaq istehsalını genişləndirmək lazımdır, xüsusilə də texniki bitkilərdən daha çox ərzaq məhsulları əkinlərini. Lakin bu sahədə yeganə problem bu deyil.

Məlum olduğu kimi, bəzi qlobal qüvvələr transmilli şirkətlərin əli ilə GMO məhsulların, toxumların geniş miqyasda yayılmasına çalışırlar. Bu prosesdə yerli təbii toxumlar sıradan çıxır, yerinə reproduksiya verməyən toxumlar keçir. Bu halda əkinçilər əkdikləri məhsuldan toxum əldə edə bilmir, həmin toxum satıcılarından asıl olurlar. GMO məhsullar əhalinin sağlamlığı cəhətdən xeyli ciddi təhlükə olsa da, digər təhlükə ölkələrin ərzaq təhlükəsizliyinə son dərəcə ciddi təhdid yaratmasıdır. Yəni, ərzaq istehsalı hansısa qlobal qüvvənin əlində olur və istədikləri ölkəni çökdürmək üçün rıçaqlar əldə edirlər. Bu problemə diqqəti artırmaq lazımdır.

İlk növbədə, prezidentin sərəncamları ilə yaradılmış toxumçuluq təsərrüfatları genişləndirilməli, bütün yerli toxumlar çoxaldılmalı və təsərrüfatlara güzəştlə verilməli, GMO toxumlara qarşı mübarizə gücləndirilməlidir. Düzdür, Azərbaycanda GMO məhsulların əkilməsi, istehsalı və idxalı çoxsaylı qanunlarla qadağan edilib, lakin bu qanunların icrasına nəzarəti son dərəcə gücləndirmək lazımdır. Dövlət ərzaq istehsalını planlaşdırmalı, tənzimləməlidir.

Azad olunmuş ərazilərin iqtisadi dövriyyəyə qoşulması böyük aqrar potensialı olan bu bölgədən böyük həcmdə ərzaq istehsalına imkan yaradacaq. Qarabağ bölgəsində həm heyvandarlıq, həm taxılçılıq, həm meyvə-tərəvəzçilik üçün çox böyük imkanlar var. Ölkədə idxalı yüksək olan kənd təsərrüfatı məhsullarının becərilməsi üçün stimullaşdırıcı addımlar çoxalmalıdır. Ərzaq buğdası əkinləri artırılmalıdır. Xüsusilə də, kiçik təsərrüfatlara güzəştlər artırılmalıdır.

Burada vacib məqamlardan biri də odur ki, kəndlilərə öz məhsullarını ölkə bazarlarına rahat çıxarması üçün şərait yaradılmalıdır. Öz məhsullarını gətirib şəhərlərdə səyyar satanlara maneələr götürülməlidir, təbii ki, küçələrdə meydanlarda yox, həyətlərdə. Hər şəhərdə bir və ya bir neçə daimi yarmarkalar təşkil olunmalı, orada öz məhsulunu gətirənlərdən heç bir haqq alınmamalıdır. Bununla həm ölkədə ucuzluq yaranacaq, həm də məhsulunu yaxşı sata bilmiş təsərrüfatçı istehsalı artırmağa çalışacaq. Nəticədə, ölkədə ÜDM artacaq, dövlət büdcəsinin gəlirləri çoxalacaq, işsizlik azalacaq. Ən əsası, ərzaq təhlükəsizliyi və qida təhlükəsizliyi tam təmin olunacaq. Biz xarici GMO məhsullart əvəzinə əhalimizi öz təbii məhsullarımızla təmin edə biləcəyik.

***Elçin Bayramlı***

ARAŞDIRMA

SON SƏHİFƏ
SƏS
17 oktyabr
2023-cü il

# Polietilen torbaların ödənişli olması istifadəni azaldıb?



***“Polietilen torbaların ödənişli olmasının bu torbalardan istifadənin azalmasına elə də ciddi təsirini görmürük. Faktiki olaraq əhali arasında aparılan sorğular, ekspertlərin müşahidələri göstərir ki, qanun gözlənilən effekt vermədi. Əslində polietilen torbaların ödənişli olmasının başlıca səbəbi odur ki, ətraf mühiti çirkləndirən bu vasitələrdən istifadə minimuma endirilsin, həm də onların satışından əldə olunan vəsaitdən dövlət büdcəsinə vergi köçürülsün”. Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı-ekspert Rauf Qarayev deyib.***

Onun sözlərinə görə, bu torbalardan istifadə edənlərin 48 faiz azalması real statistika olsa belə, bu yenə də ekoloji cəhətdən təmiz olan kağız və parça torbalara keçidi stimullaşdıra bilməyib: ”Sadəcə insanlar əvvəl mağazaya girəndə aldığı hər məhsulu ayrı polietilen torbaya qoyurdusa, ödənişli olandan sonra birini alır. Axı bu zərərli torbalardan istifadə edən əhalinin sayının azalması deyil, dediyim kimi, pullu olduğu üçün insanlar 3 yox, 1 torba ilə kifayətlənir. Üstəlik, mağazalarda müştərilərə kağız paketlər təklif olunmur. Onlardan ancaq şir-

### İQTİSADÇI AYDINLIQ GƏTİRDİ

niyyat bölməsində istifadə edirlər. Kassalarda yenə də vətəndaşa “klyok” verək?” təklifi edilir. Sovet dövründə əhalinin həsirdən, yaxud da daimi istifadə üçün parçadan zənbilləri olurdu, bazarlığa da onunla gedirdilər. Məqsəd bu ənənəni yenidən aktuallaşdırmaq idi, lakin nail ola bilmədilər. Polietilen torbalardan hazırda da geniş istifadə olunur və ekologiyanı çirkləndirməyə əvvəlki kimi davam edirlər”.

İqtisadçı sözlərinə davam edərək bildirib ki, polietilen torbaların keyfiyyətinə nəzarət də düzgün aparılmır və istehsalçı burada polietilen torbaları incələdərək, keyfiyyətini azaldaraq əlavə qazanc əldə edir: ”Nəticədə, bu da insanları əlavə polietilen torba almağa sövq edir. Polietilen torbalar yırtıldığı zaman onu yenisi ilə əvəz etsinlər. İri marketlərdən kənar satılan polietilen torbalar da əvvəlki kimi keyfiyyətli deyil. Polietilen torbaların üzərində marketlərin loqoları yerləşdirilib. Yəni polietilen torbalardan istifadə edən hər bir alıcı marketi reklam edir. Şirkətlərin gəlirinin 40 faizinə yaxını marketinq siyasətinə xərclədiyini nəzərə alsaq, burada demək olar ki, heç bir xərc çəkmədən özünü reklam edir”.

**Ləman Sərraf**


# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Kişilər bəzi qadın sürücülərə qarşı niyə kobudluq edir?

Uzun müddətdir davam edən tendensiyadır ki, kişi sürücülər qadınları sükan arxasında görmək istəmir. Hətta qadınlara avtomobil idarə etdiyi üçün xüsusi aqressiya ilə yanaşanlar da az deyil. Məsələn, bir çox kişi sürücülər qadınlar avtomobil idarə edərkən ard-arda siqnal verir, müxtəlif manevrlər edir və çaşqınlıq yaradır. Bunlar da ciddi təhlükəli nəticələrə səbəb ola bilər. SİA mövzu ilə bağlı nəqliyyat eksperti Aslan Əsədovun fikirlərini öyrənib. Onun sözlərinə görə, qadın sürücü münasibətlərinin hər hansı bir vəziyyətdə olması tərkib gender bərabərliyi, yaxud kişi sürücülərin üstünlüyə malik olması demək deyil: ”Sürücülərin sürmə məharətinin özünü göstərməsi və daha çox sürücülük vərdişlərinin aşılanması kimi məsələlər özünü ehtiva edir”.

Aslan Əsədov sözlərinə belə davam edib: ”Əgər avtomobil şəhərdə idarə olunursa, birbaşa tövsiyəm ondan ibarətdir ki, mütləq səriştəsi olan şəxslər yol-nəqliyyat işirakçısı olsunlar. Digər hallarda isə bu ağır fəsadlara yol aça, yaxud ölümlə nəticələnə bilər. Yəni, sürməyi bacarmayanlar sürməsin. Çünki yollarımız sıxdır və ciddi problem yaranır. Bu halda digər sürücülərin də avtomobil idarə etməsi çətinləşir”



**Ayşən Vəli**

# TƏBRİK!



**El ağsaqqalı Məmmədov Xeybər Əli oğlunu 80 illik yubileyi münasibətilə Məmmədhəsən Məmmədov, Əzizağa Əmirov, Bəhruz Əliyev və yaxınları təbrik edir, ona uzun ömür, cansağlığı arzulayırlar.**

# XƏBƏRDARLIQ: Temperatur 6-8 dərəcə aşağı enəcək

Bakıda və Abşeron yarımadasında oktyabrın 17-si səhərdən şimal-qərb küləyinin 15-20 m/s, arabir 23-28 m/s, gündüz yarımadanın bəzi yerlərində arabir 30 m/s-dək güclənəcəyi gözlənilir. Milli Hidrometeorologiya Xidmətindən SİA-ya verilən xəbərə görə, Azərbaycanın rayonlarında oktyabrın 17-si gündüzdən 20-si səhərədək ölkə ərazisində hava şəraitinin qeyri-sabit keçəcəyi, bəzi yerlərdə fasilələrlə leysan xarakterli yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə (Balakən-Şəki, Quba-Qusar, Dağlıq Şirvan, Qarabağ və Şərqi Zəngəzur, Qazax-Gəncə, Naxçıvan MR-sı, Mərkəzi Aran, Lənkəran-Astara) yağıntıların intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var.

Qərb küləyi oktyabrın 17-si və 19-da 15-20 m/s, arabir 23-25 m/s, 17-də bəzi yerlərdə arabir 28-30 m/s-dək güclənəcək. Havanın temperaturu ötən günlərlə müqayisədə tədricən 6-8° aşağı enəcək.



Çaylarda sululuğun artacağı, Balakən-Şəki bölgəsinin ərazisindən axan Katexçay, Talaçay, Şinçay, Kürmükçay; Oğuz-Qəbələ bölgəsinin Göyçay, Dəmiraparançay, Girdimançay; Quba-Qusar bölgəsinin Vəlvələçay, Qaraçay; Daşkəsən-Gədəbəy və Gəncə-Qazax bölgəsinin Əsrikçay, Gəncəçay, Qabırrıçay; Qarabağ və Şərqi Zəngəzur bölgəsinin Goranççay, Quruçay, Köndələnçay çaylarından qısamüddətli daşqın və sel keçəcəyi ehtimalı var.


**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**